www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 may 2019-cu il Bazar etəsi № 102 (7272) Qiyməti 60 qəpik

**Xəbər**

## Rusiyada azərbaycanlı gənc çimərlikdə boğuldu

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycana qarşı növbəti çirkin kampaniya



Xaricdəki anti-Azərbaycan qüvvələri təzədən fəallaşıb - səbəb; Bakıdan sərt reaksiyalar...

yazısı səh.3-də

### İrana qarşı metallurgiya sanksiyası: Bakıda evlər bahalaşa bilərmi?

yazısı səh.6-da

### Məzarlıqlar bələdiyyələrə verilir: paytaxtdakı bahalı "qəbir evləri"ndən reportaj

yazısı səh.10-da

### Bişkek protokolunun imzalanmasından 25 il ötdü - sülh əvəzinə müharibə qapıda

yazısı səh.11-də

### 28 Mayda yeni əfv gözləntisi - hüquq müdafiəçiləri deyir ki...

yazısı səh.3-də

### "MTN işi"ndən yararlanmağa çalışan dələduz illər sonra tutuldu

yazısı səh.5-də

### Məşhur diktor: "Yuxuda da radio, mikrofon görürdük..."

yazısı səh.13-də

### "Emin 444"ü 6 nəfər öldürüb - qəddar qətlin ilginc təfərrüatları

yazısı səh.14-də

### Orucsunuzsa, bu yazını mütləq oxuyun!

yazısı səh.15-də

**Ramazan ayının 8-ci günü**

İftar 20. 03. İmsak 03.45-dək (QMİ)

8-ci günün duası: "İlahi, bu gün məni yetimlərə rəhm edən, Sənin yolunda yoxsullara yemək bəxşiş edənlərdən və salamı açıq-aydın şəkildə verənlərdən qərar ver! Məni Öz nemətinlə kəramətli və yaxşı insanlarla yoldaş et! Ey arzu edənlərin Sığınacaq və Pənahı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# BRÜSSELDƏ KRİTİK DANIŞIQLAR: BAKI VƏ QARABAĞ ÜÇÜN MÜHÜM HƏFTƏ

Bu gün Avropa Birliyinin "Şərq tərəfdaşlığı" sammiti başlayır; Azərbaycan prezidentinin də dəvət aldığı toplantıdan əsas gözlənti; **politoloq:** "Təşkilatla bağlanacaq saziş Rusiyaya qarşı yönəlməyib..."




yazısı səh.8-də

## Arif Əsgərovun ətrafında çənbər daralır - sabiq məmurun başı dərddə

Ziya Məmmədovun keçmiş müavini beynəlxalq korrupsiya işinə görə həbs edilə bilər; **hüquqşünas:** "Dünya Bankı kimi mötəbər qurumun xəbərdarlığı sıradan hadisə deyil..."

yazısı səh.5-də



*Rey Kərimoğlu:*

### "Ordumuzun hərəkətə keçməsinin vaxtı çatıb"

yazısı səh.9-da



### Eyyub Hüseynovdan SOS: "Vaxtı keçmiş, təhlükəli məhsulların son ünvanı yenə istehlakçılardır"

yazısı səh.4-də



*Qüdrət Həsənquliyev:*

### "Azərbaycan seçimini etməlidir, zaman çoxdan yetişib"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019




Məryəm Cəbrayılova

# Məşhur azərbaycanlı boksçu küçədə qadını döydü

**Qadınlardan ibarət boks üzrə milli komandanın üzvü Məryəm Cəbrayılova küçədə qadına hücum edib. Musavat.com xəbər verir ki, Günay Zeynalova adlı qadın avtomobillə Xaqani bağı istiqamətində hərəkət edərkən əks yoldan daxil olan, boksçu Məryəm Cəbrayılovanın da içərisində olduğu avtomobil onun qarşısını kəsib və yolu bağlayıb. G.Zeynalova etirazını bildirdikdə isə avtomobildən düşən Məryəm Günaya hücum edib.**

Məsələ ilə bağlı musavat.com-a danışan G.Zeynalova hələ də hadisənin şokundan çıxa bilmədiyini deyib: "Mayın 5-də saat 18 radələrində övladımla Xaqani bağının yanında avtomobilimə əyləşdim. Avtomobili park etdiyim yerdən hərəkət istiqamətində hərəkət etdirərkən 99-XZ-131 dövlət qeydiyyat nişanlı avtomobil mənimlə üzbəüz gəldi. Qeyd edim ki, həmin küçədə hərəkət birtərəflidir və həmin şəxslər yol hərəkəti qaydalarını açıqca pozurdu. Baş verənlər hamısı kameralara düşüb. Mən də etirazımı bildirdim. Qəfildən Məryəm maşından düşüb, mənə yaxınlaşdı. Pəncərədən əlini uzadıb, üzümə yumruq vurdu. Mən başımdan yenicə əməliyyat olmuşam. Əməliyyatımın yerinə zərbələr endirdi. Saçımı yolmağa başladı. Şoka düşdüyüm üçün hərəkət edə bilmədim. Bir onu xatırlayıram ki, arxada oturan 8 yaşlı qızım saçımı onun əlindən almağa çalışırdı. Sonra camaat onu dartıb, apardı. Qışqırmağa başladım. Qızım elə qorxmuşdu ki, mənə yaxın gəlmirdi. Sonra 102-yə zəng etdim, 39 nömrəli polis bölməsinə getdik. Orada da bacımı hədələdi".

G.Zeynalova məşhur boksçunun cəza almasını istədiyini dilə gətirib: "Maddi-mənəvi ziyan çəkmişəm. Orada 10 min avroluq saatım itdi. Bir neçə gün öncə fikirli olub, maşını vurmuşam. Psixologiyam pozulub, gecələr kabus görürəm. Qızımın da psixologiyası pozulub. İkimiz də psixoloqdan dəstək alırıq. Tək istəyim ədalətli qərarın verilməsidir. Məryəm Cəbrayılovanın layiqli cəza almasını istəyirəm. Çünki bu, sabah küçədə başqa qadının da başına gələ bilər. Mənim yaşadıqlarımı başqalarının yaşamasını istəmirəm".

Əlavə edək ki, G.Zeynalova bir çox məşhur müğənninin klipində rol alıb.

**❑ KÖNÜL, Musavat.com**

Abunə daha sərfəlidir - **"Yeni Müsavat" abunə** kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# İrana görə on minlərlə əsgər, təyyarədaşıyanlar, desant gəmiləri, bombardmançılar...

**Pentaqon İrana görə Fars körfəzində hərbi qüvvələrin "diqqətlə düşünülmüş cəmləşdirilməsini" həyata keçirir. Virtualaz.org Amerika və İsrail mənbələrinə istinadən xəbər verir ki, "Avraam Linkoln" təyyarədaşıyanı artıq Süveyş kanalını keçib və Fars körfəzi sularına daxil olub. Küveytdəki Əl-Udeyd Amerika aviabazasına isə strateji bombardmançıların cəmləşdirilməsi davam edir.**



Habelə Pentaqon regiona böyük "Arlington" desant gəmisini də yola salıb. Bu gəmi göyərtəsində dəniz piyadalarını və vertolyotları daşıya bilir. Bundan əvvəl ABŞ-ın regiona "Petriot" zenit-raket komplekslərini də yola saldığı açıqlanmışdı. Bu, Yaxın Şərqdən dörd belə batareyanın çıxarılmasından cəmi bir neçə ay sonra baş verir. Belə ki, Pentaqon ötən ilin sonlarında Bəhreyn, Küveyt və İordaniyadan "Petriot" batareyalarını çıxarmışdı.

Rəsmi mənbələr bildirir ki, regiona qüvvələrin cəmləşdirilməsi ABŞ Mərkəz Komandanlığının (CENTCOM) sorğusu əsasında baş verir. Komandanlığa daxil olan məlumata görə, İran ABŞ-ın regiondakı maraqlarına hücum etmək üçün özünün və satellitlərinin qüvvələrini səfərbər edir. Amerikalılar hesab edirlər ki, populyarlığı aşağı düşən İran hakimiyyəti ölkədə hökm sürən iqtisadi çətinliklərdən diqqəti yayındırmaq üçün təxribatlara əl ata, nəticədə ABŞ-la hərbi toqquşma başlada bilər.

"The New York Times" xəbər verir ki, bu həftə Pentaqon regiona daha böyük miqyasda qüvvə cəmləşdirilməsinə dair əmr alıb. Bu, İranı çəkindirməyə yönələn və əvvəlcə açıqlanan "məhdud addımların" çərçivəsindən kənara çıxır. Plana əsasən Yaxın Şərqə on minlərlə Amerika hərbçisinin göndərilməsi nəzərdə tutulur. Bu plan haqda məlumat verən mənbələr onu da deyiblər ki, qüvvələrin cəmləşdirilməsi hələ erkən mərhələdədir və İrana qurudan müdaxilə nəzərdə tutulmur.

# İrandan qadınlarla bağlı mühüm qanun

**Dünən İran İslam Şurası Məclisində (Parlament) xarici vətəndaşlarla ailə quran iranlı qadınların uşaqlarına vətəndaşlıq verilməsi haqqında qanun layihəsi müzakirə edilib. Azərtac ttp://azertag.az/ xəbər verir ki, müzakirələrdə İranın ailə, qadın və uşaq məsələləri üzrə vitse-prezidenti Mənsumə Ebtikat da iştirak edib.**

Deputat Mahmud Rəhimi Cahanabadi bildirib ki, bu qanun layihəsi İran qadınlarının hüquqlarının qorunması məqsədi ilə hazırlanaraq parlamentə təqdim edilib. Onun sözlərinə görə, xarici vətəndaşlarla ailə həyatı quran qadınlar öz övladlarının İran vətəndaşı olmasını istəyirlər. Onların bu istəyini inkar etmək olmaz.

Qanun layihəsi səsə qoyulduqdan sonra 20 nəfər əleyhinə, 188 nəfər isə lehinə səs verib və qanun qəbul edilib.

Xatırladaq ki, bu məsələ uzun müddət İran parlamentində mübahisə mövzusu olub. Məsələnin mahiyyəti ondan ibarətdir ki, İran qanunlarına görə, ikili vətəndaşlıq qadağandır. Buna baxmayaraq, sözügedən qanunun qəbulundan sonra xarici vətəndaşla ailə quran iranlı qadınların övladları ikili vətəndaşlığa sahib olacaqlar.



# Çaylarda daşqın ola bilər? - Nazirlikdən açıqlama

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, ötən günlər ərzində yağan yağışlar nəticəsində respublikanın çaylarında, xüsusən də Balakən-Şəki ərazisindən axan çaylarda sululuğun artımı müşahidə olunub. Böyük Qafqazın Quba-Xaçmaz bölgəsindən axan Vəlvələçay çayında sululuq ongünlük normadan az olmaqla normanın 70, Kiçik Qafqazın ərazisindən axan Kürəkçay və Zəyəmçay çaylarında sululuq ongünlük normadan az və normaya yaxın olmaqla 60-90, Lənkəran-Astara bölgəsindən axan Lənkərançay, Vəşəruçay və Viləşçayda isə sululuq ongünlük normadan çox olmaqla 150-180 faizini təşkil edib.**

Tranzit çaylarda vəziyyətə gəlincə, yağan yağışla əlaqədar Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 34 sm artım müşahidə olunub. Mayın 6-da yağan yağışla əlaqədar Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində 14 sm artım müşahidə olunub.

Araz çayının Qıvraq məntəqəsində suyun səviyyəsində 39 sm artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi 360 kub/s qeydə alınır ki, bu da ongünlük normaya yaxın olmaqla normanın 85 faizini təşkil edib. Kür çayının aşağı axınında vəziyyətə gəlincə, Kür çayının aşağı axınında suyun səviyyəsində azalma müşahidə olunub. Belə ki, Kür çayının Surra məntəqəsində suyun səviyyəsi 13 sm azalaraq 472 sm təşkil edib. Bu rəqəm 2018-ci il mayın 06-da isə 330 sm olub. Şirvan məntəqəsində suyun səviyyəsi 18 sm azalaraq 265 sm qeydə alınıb. 2018-ci il mayın 06-da isə bu rəqəm 179 sm təşkil edib. Salyanda suyun səviyyəsi 16 sm azalıb və 303 sm olub. Bankə məntəqəsində suyun səviyyəsi 8 sm azalaraq 251 sm olub və bu göstərici 2018-ci il mayın 06-da 167 sm qeydə alınıb. Araz çayının Novruzlu məntəqəsində isə suyun səviyyəsi 5 sm azalaraq 215 sm müşahidə olunub. Bu rəqəm 2018-ci il mayın 06-da isə 48 sm təşkil edib.



# Bu gün Bakıda yağmursuz hava və 25° isti olacaq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz olacaq.**

Səhər bəzi yerlərdə duman olacaq, lakin axşam qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 14-17° isti, gündüz 22-27° isti, Bakıda gecə 15-17° isti, gündüz 23-25° isti təşkil edəcək. Atmosfer təzyiqi 762 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 45-50 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə gün ərzində yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağışda fasilə olacaq. Gecə və səhər ayrı-ayrı yerlərdə duman. Şərq küləyi axşam mülayim qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 13-18° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-10° isti, gündüz 13-18° isti təşkil edəcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Azərbaycana qarşı növbəti çirkin kampaniya

## Xaricdəki anti-Azərbaycan qüvvələri təzədən fəallaşıb - səbəb; Bakıdan sərt reaksiyalar...

**Mayın 29-da Bakıda keçiriləcək UEFA kubokunun final oyunu ilə bağlı xaricdəki bəzi dairələr əndişə içindədir. Artıq anti-Azərbaycan dairələri ölkəmizə qarşı növbəti çirkin kampaniyaya başlayıblar. Beynəlxalq ictimaiyyətdə bu yarışın Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəyin formalaşdırılmasına cəhdlər edilir.**



Bu da haqlı olaraq, hiddət doğurur. Çünki 2019-cu ildə UEFA-nın finalının keçirilməsi üçün məkan olaraq Bakı Olimpiya Stadionu uzun müddət öncə seçilib. O zaman qəflət yuxusunda yatanlar final öncəsi ayılıblar. Maraqlıdır ki, bu çirkin kampaniyada Böyük Britaniyadakı dairələr daha fəal görünür. Bu da suallar doğurmaya bilməz. Çünki Bakıdakı finalda iki ingilis klubu - "Çelsi" və "Arsenal" iştirak edəcək.

Əslində qalsa, bu cür kampaniyanın təşkili o qədər də təəccüb doğurmur. Belə ki, Azərbaycan ictimaiyyəti müəyyən xarici anti-Azərbaycan dairələrin mühüm tədbirlər ərəfəsində ölkəmizə qarşı belə qərəzli kampaniyalar təşkil etməsinin dəfələrlə şahidi olub. Sanki bu dairələr unudublar ki, ölkəmiz indiyə qədər 2012-ci ildə "Eurovision", 2015-ci ildə Avropa Oyunları, 2016-cı ildə İslam Həmrəyliyi Oyunları və digər bu tipli yarışlar keçirib. Bu yarışların heç birində xoşagəlməyən hallar yaşanmayıb. İstər yarış iştirakçıları, istərsə də, Bakıya gələn turistlər öz razılıqlarını dəfələrlə dilə gətiriblər.

Məlumat üçün bildirək ki, indiki kampaniyada ənənəvi olaraq, insan haqları, demokratiya kimi məsələlər qabardılır. Azərbaycan tərəfi bu iddiaların əsassız olduğunu dəfələrlə sübut edib, Qərb ölkələrinin bir çoxunda insan hüquqları və digər məsələlərdə problemlərin olduğunu önə çəkib. Yaxın keçmişə nəzər salsaq, Fransanın nümunəsində bunun şahidi ola bilərik.

Mayın 29-dakı finalla bağlı anti-təbliğatda yer alan iddialardan biri də viza rejimi ilə bağlıdır. Guya viza şərtləri Bakıya gəlməyə ciddi əngəl yaradır. Ancaq sadələşdirilmiş viza rejimi bu iddiaları tam təkzib edir və hər bir xarici vətəndaşın çox asan şəkildə viza almasına şərait yaradır. Otellərin baha olmasından da söz açılır. Amma Bakıda 20-30 dollardan başlayaraq daha yüksək qiymətlərə otellər on minlərlə idman azarkeşini qəbul etməyə imkan yaradır.

Kampaniyada uçuş biletlərin, qiymətləri də yer alır. Lakin Azərbaycan tərəfinin bu iddiaları konkret faktlarla darmadağın edəcək imkanları ortadadır. AZAL hazırda Böyük Britaniyaya və geri olan reyslərinə beynəlxalq mülki aviasiyada mümkün olan ən aşağı qiymətlərdən başlayaraq daha yüksək qiymətlər tətbiq edir. AZAL-ın təklif etdiyi qiymətlər mövcud beynəlxalq qiymətlərdən daha aşağıdır.

Gedən məlumatlarda "Arsenal"ın erməni əsilli futbolçusu Henrix Mxitaryanla bağlı yazılar çoxluq təşkil edir. Təxribat xarakterli məlumatlarda guya erməni futbolçunun Bakıya gəlişi onun təhlükəsizliyinə problem yarada bilər. Azərbaycanın bu iddiaları da bariz sübutlarla bitirəcək əlində faktlar var. Belə ki, indiyə qədər Avropa Liqası çərçivəsində Mxitariyanın Bakıya iki dəfə gəlmək şansı olub. Ancaq Azərbaycana gəlməkdən imtina edib. İndi isə Mxitariyan Bakıya gələcək və bununla bağlı bir daha rəsmi Bakı onun təhlükəsizliyini qorumaq üçün zəmanət verib. Əvvəllər də erməni idmançılar Azərbaycana gəliblər, hətta dövlət başçısı onlara şəxsən mükafat təqdim edib və heç bir insident, xoşagəlməz hal qeydə alınmayıb.

Bu kampaniyada Böyük Britaniyanın canfəşanlığına gəlincə, onu deyə bilərik ki, UEFA finalının vaxtı və yeri təyin olunanda heç kim bu komandaların ingilislərə məxsus olacağını ehtimal etmirdi. Digər tərəfdən, təcrübə göstərir ki, bir çox hallarda finala çıxan komandalar oyunlarını öz vətənlərindən min kilometrlərlə uzaq ölkələrdə keçiriblər və heç vaxt belə iddialar irəli sürülməyib, kampaniyalar təşkil edilməyib.

İngilis azarkeşlərinin bir o qədər də arzuolunan qonaq olmadığı bir faktdır. Bunu futbol yarışlarında çılğın ingilis fanatlarının törətdikləri iğtişaş, qarşıdurmalarla göstərmək mümkündür.

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında belə kampaniyaların zaman-zaman təşkil olunduğunu söylədi: "Bu cür kampaniyalar gözləniləndir. Açığı, Azərbaycana qarşı bu cür münasibətdə həmin dövlətlərin mövqeyi sərgilənmir. Orada ayrı-ayrı ölkəmiz əleyhinə olan qrupların dövlət siyasəti, mövqeyi olaraq fikirləri daha çox diqqət mərkəzinə gətirilir. Ona görə də, belə kampaniyalara Qərb ölkələrinin məsələyə münasibətləri kimi baxılmamalıdır. Bunlar mənasız kampaniyalardır. Kim istəyirsə final oyununa baxmağa gəlsin, istəməyənin isə özü bilər. Gələnlər möhtəşəm bir final oyununu izləyəcəklər. Azərbaycan bu yarışı keçirməyə yüksək səviyyədə hazırlaşır. Hər zaman belə beynəlxalq tədbirlər ərəfəsində bu cür təxribatlar olur, amma heç bir nəticə vermir".

AĞ Partiya başqanı Tural Abbaslı bu kampaniyanın təsadüf olmadığını düşünür: "Son günlər istər final oynayacaq komandaların rəsmilərinin, istərsə də azarkeş təmsilçilərinin adından bəzi narahatlıq ifadə edən fikirlər oxumuşam. Final oyununun Bakıda keçiriləcəyi əvvəlcədən bəlli idi. Əgər narahatlıq və ya şikayət vardısa, bunu öncədən bildirmək lazım idi. Həmçinin, mən bilən oyunlar UEFA tərəfindən hansısa şəhərə təyin olunarkən standartlara uyğunlaşdırılır və bəzi şərtlər irəli sürülür. Yəni ki, istər məsafənin uzaqlığı, istər biletlərin qiymətləri, istərsə də digər nüansların hamısı öncədən hesablanıb, nəzərə alınıb. Eyni zamanda, oyunların müxtəlif coğrafiyada keçirilməsi və futbolun təbliğat sərhədlərinin genişlənməsi UEFA və FİFA-nın öz marağındadır. Futbolun coğrafiyasının daha da genişlənməsi bu qurumların siyasətində prioritetlərdəndir. O ki qaldı "Arsenal"ın tərkibindəki erməni oyunçusuna, bu barədə səhv etmirəmsə, AFFA və dövlət öz mövqeyini bildirib. Zatən, belə beynəlxalq tədbirlərdə bu ilk hadisə deyil. Burada da nəsə problemin olacağına inanmıram. Ümumiyyətlə isə, belə dövləti xüsusi xərcə salmadan, qısamüddətli idman tədbirləri ölkə üçün də önəmlidir. Büdcədən böyük xərcləmələr etmədən ölkəni dünyada tanıtmaq və turist cəlb etmək üçün də belə tədbirlər faydalıdır. Mən son zamanlar səslənən neqativ fikirlərin təsadüfi olmadığı və bəzi maraqlı dairələr tərəfindən təşkil olunduğu düşüncəsindəyəm".

Rekord.az saytının baş redaktoru Kənan Məstəliyev bu cür müzakirələri gülünc sayır: "Azərbaycan kiçik ölkədir. Özünəməxsus siyasəti, mövqeyi və strategiyası var. Bəli, ola bilər ki, bu, kiminsə xoşuna gəlmir, yeridilən siyasəti bəyənmir. Bu, onların şəxsi işləridir. Azərbaycan son illərdə Avropa və dünya səviyyəli nəhəng yarışlar təşkil edib. Heç birində də nəsə problem çıxmayıb. Avroliqanın finalında da çıxma ehtimalı yoxdur. Çünki belə yarışların, böyük matçların təşkilində yetərincə təcrübəmiz var və necə deyərlər, sınaqlardan dəfələrlə üzüağ çıxmışıq. Yenə həmin valı qoyub oxutmağa ehtiyac yoxdur. Finalçıların ikisi də - "Arsenal" da, "Çelsi" də son iki ildə ayrı-ayırlıqda Bakıya səfər edib və öz dilləriylə xoş qarşılanma, isti münasibətə görə təşəkkür edərək ayrılıblar. İndi nə oldu bəs? O ki qaldı Mxitaryana, bu məsələnin müzakirəsi belə gülüncdür. Bəli, onun Bakıya gəlməsi xoş hal deyil, amma Azərbaycan tərəfi dövlət səviyyəsində təminat verib. Bu təminat finalçının hətta Ermənistan komandasının olma ehtimalı olaraq belə verilmişdi. Bakıya dəfələrlə idmançılar istər tək, istərsə də komanda şəklində gəliblər, problemsiz də ayrılıblar. Yəni müzakirələrin açılması gülüncdür və kənardan məqsədyönlü görünür".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# 28 Mayda yeni əfv gözləntisi

## Hüquq müdafiəçilərinə görə, ayrı-ayrı şəxslərin məhkəmə qərarı və ya şərti cəza ilə azadlığa buraxılması da mümkündür...



**Qarşıdan 28 May - Cümhuriyyət günü gəlir. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101-ci ilidir. Xatırladaq ki, cümhuriyyətin yaradılmasının 100-cü ildönümü Azərbaycanda dövlət səviyyəsində qeyd edilir. Bu günlə bağlı 2018-ci ildə çoxsaylı tədbirlər təşkil edilib, ölkə prezidenti tərəfindən sərəncamlar imzalandı. Eləcə də prezident 2018-ci ilin 24 may tarixində əfv sərəncamı da verdi.**

Bu ilin martında Novruz bayramı ilə bağlı verilən əfv sərəncamı isə "böyük əfv" kimi xarakterizə olundu. Gerçəkdən də sonuncu dəfə imzalanan əfv sərəncamı ilə azadlığa çıxanların siyahısı kifayət qədər böyük oldu. Onların arasında siyasilər də az deyildi. Bu əfv sərəncamı ictimaiyyət tərəfindən yüksək səviyyədə qarşılandı. Hətta hakimiyyətə müxalif olan şəxslər belə prezidentin bu addımını alqışlayıb, ona təşəkkür etdilər.

Bu il Novruz bayramı ərəfəsində verilən əfv sərəncamı ilə azad olunan dustaqlar siyahısında 50-dən çox siyasi məhbus var idi. Avropa İttifaqının alqışladığı bu qərar ən böyük əfv fərmanı kimi qiymətləndirildi. Hazırda hüquq müdafiə təşkilatının siyasi məhbus kimi tanıdığı AXCP sədrinin müavini Seymur Həzi, Asif Yusifli, jurnalist Əfqan Muxtarlı, Saleh Rüstəmov, Səid Dadaşbəyli həbsdədirlər. İctimaiyyətdə belə bir fikirlər var ki, bu ilin mayında növbəti əfv sərəncamı imzalanacaq və bununla da digər yuxarıda adını çəkdiyimiz şəxslər azadlığa buraxılacaqlar.

Politoloqların təhlilinə görə, siyasi fəaliyyəti olan şəxslər həbsxana divarları arasında olduqları zaman bəzi daxili və xarici qüvvələr tərəfindən bir qəhrəman kimi ictimaiyyətə təqdim olunurlar. Azadlığa çıxdığı zaman isə onların siyasətdə elə bir əhəmiyyətli fiqur olmadıqları aydınlaşır. Məhz bu səbəbdən də ekspertlər bildirirlər ki, siyasilərin azadlığa buraxılması daha məqsədəuyğundur.

Bəs may ayında əfv sərəncamı olacaqmı?

Hər zaman əfv sərəncamından öncə Əfv Komissiyasının tez-tez iclasları keçirilir. Həmin iclaslarda məhbusların ərizələrinə baxılır və siyahı hazırlanır. Adətən bu iclaslar keçirildikdə ictimaiyyətə açıqlama verilir və nə qədər məhbusun ərizəsinə baxılması ilə bağlı məlumat yayılır. Sonuncu əfv sərəncamı ərəfəsində də Əfv Komissiyasının iclasları barəsində mətbuatda tez-tez informasiyalar yayılırdı. Lakin hazırkı ərəfədə belə bir məlumatlara rast gəlinmir...

"Yeni Müsavat"a danışan hüquq müdafiəçisi Səadət Bənəniyarlı bildirdi ki, onların tərtib etdikləri siyahıdan bir neçə siyasi fəaliyyəti olan şəxs həbsdədir: "Onlar barəsində də işlər gedir və inanırıq ki, bu şəxslərin də məsələsi müsbət həll ediləcək. Əfv fərmanının verilməsi prezidentin səlahiyyətinə aiddir. O, bu kimi bayramlar zamanı əfvlə bağlı sərəncam imzalayır. Ancaq son olaraq böyük əfvin olduğunu nəzərə alaraq hesab edirəm ki, may ayında əfv olmayacaq. Ancaq olarsa, təbii ki, bu, çox yaxşı olar".

Səadət Bənəniyarlının sözlərinə görə, onların tərtib etdikləri siyahıdan, son əfv sərəncamı ilə 61 nəfər azadlığa çıxıb.

Hüquq müdafiəçisi Səidə Qocamanlı da "Yeni Müsavat"a bildirdi ki, ötən əfv sərəncamının imzalanmasından çox az zaman keçib. Ona görə də yenidən əfvin olacağını gözləmir: "Martda böyük siyahını əhatə edən əfv sərəncamının imzalanması onu deməyə əsas verir ki, mayda əfv olmayacaq. Amma ayrı-ayrı şəxslərin məhkəmə qərarı və ya şərti cəza ilə azadlığa buraxılması halları ola bilər. Bu istiqamətdə işləyirik", - deyə S.Qocamanlı qeyd etdi.

Hüquq müdafiəçisi hesab edir ki, dustağın əfv yazması vacib deyil: "Onun yerinə doğmaları, təşkilatlar müraciət yaza bilərlər. Son əfv veriləndə bir çoxları heç müraciət etməmişdilər. Çünki bilavasitə prezidentin səlahiyyətində olduğuna görə dövlət başçısı humanistlik nümayiş etdirdi, ailələrə sevinc bəxş elədi".

Hüquq müdafiəçiləri bildirdilər ki, böyük əfv sərəncamı imzalansa da, onlar fəaliyyətlərinə əvvəl olduğu kimi fasilə verməyiblər. Müraciətlər hazırlayıb, işlərini davam etdirirlər.

**❑ Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019



# Mxitaryan tozanağı və Qarabağda "çempionat" hazırlığı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Ermənilər indi də başlayıblar ki, ay haray, qoymayın, Azərbaycan "Arsenal" klubunun futbolçusu Henrix Mxitaryanın ölkəyə girişinə icazə vermir! Məsələ burasındadır ki, mayın 29-da Avropa Liqasının finalında "Çelsi"- "Arsenal" qarşıdurması məhz Bakı Olimpiya Stadionunda baş tutacaq.**

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Mxitaryanın gəlişinə heç bir əngəl yoxdur. Nəinki onun... Azərbaycanda çoxlu mühüm idman tədbirləri keçirilib və onlarda erməni idmançılar da iştirak ediblər. Hətta erməni deputatlar, nazir müavinləri dəfələrlə Bakıda olub, birinin burnu qanamayıb. Ancaq kimə deyirsən? Ermənilər yenə kirimir. Ötən ilin payızında "Arsenal" Bakıda "Qarabağ"la qarşılaşanda da eyni tozanaq qoparmışdılar.

Sadəcə, Mxitaryan 2011-ci ildə işğaldakı torpaqlarımız səfər etdiyi üçün XİN onun ölkəmizə girişinə qadağa qoymuşdu. Bu səbəbdən onun Bakıdakı qarşılaşmada oynaması mümkün sayılmırdı. Lakin sonradan yenə də erməni futbolçuya "yaşıl işıq" yandırıldı. Bununla belə, gəlmədi, bəhanə etdi ki, təhlükəsizliyinə təminat yoxdur.

İndi yenə eyni "hava"nı çalırlar. Rəsmi Bakı son bir ayda ikinci dəfə bəyan edib ki, təhlükəsizliklə bağlı heç bir problem yoxdur.

Bu arada hətta UEFA da Mxitaryanın taleyindən narahat görünür. Azərbaycan XİN bir daha bəyan edib ki, idman siyasətdən kənardır. Gənclər və İdman Nazirliyi də Mxitaryanın təhlükəsizliyinə təminatın verilməməsi ilə bağlı iddiaları təkzib edib.

Bu tərəfdən də Britaniya XİN vətəndaşlarına çağırış edib ki, Bakıda sizi qarət edərlər, ehtiyatlı olun! Absurda baxın, bütün dünya ingilis azarkeşlərin əlindən bezar olub, bunlar da bizi qaralayır. Hər halda, Londonun çağırışı da Mxitaryanın soydaşlarının ürəyincədir.

Axı, nə baş verir? Fakt budur ki, 2018-ci ildə Bakı dünyanın ən təhlükəsiz şəhərlərinin reytinqində ilk 50 şəhər sırasında yer alıb və hətta bir çox Avropa ölkəsini bu sıralamada qabaqlayıb. Elə isə ermənilər niyə bu qədər hay-küy salıb?

Azərbaycanı gözdən salmaq niyyəti bəllidir. Ancaq burada başqa bir məqsəd də var. 1-9 iyun tarixlərində Azərbaycanın işğal altındakı torpaqlarındakı qondarma separatçı-terrorçu rejim separatçı "dövlət"lərin "CONİFA" - (Müstəqil Futbol Assosasiyası Konfederasiyası) futbol üzrə "Avropa çempionatı"nı keçirməyə hazırlaşır.

Separatçılar hətta "çempionat"ın himnini də yayıblar, Xankəndi, Şuşa, Cıdır düzü, Kəlbəcərdəki məşhur Xudavənd məbədinin əks olunması fonunda...

Əslində bu gün Azərbaycan XİN Ermənistanın və Qarabağ separatçılarının bu həyasızlığına diqqət yetirməli, həmsədrlərdən bu oyunbazlığa son qoymağı tələb etməlidir. Nə olsun ki, bu "çempionat" UEFA və FİFA tanımır. Addımlar atırlarsa, cavabı adekvat olmalıdır. Bu, ərazilərimizin ilhaqı istiqamətində növbəti gedişdir.

Ermənilər daim bu taktikadan istifadə edib: Azərbaycanı günahlandırıb, işğal ediblər, bizi soyqırımda günahlandırıb, özləri soyqırım ediblər. İndi də keçirəcəkləri futbol yarışından diqqəti yayındırmaq üçün Azərbaycanı suçlu çıxartmaq istəyirlər.

Əslində Bakı birmənalı bəyan etməliydi ki, Mxitaryanın ölkəmizə girişi mümkünsüzdür. Qoy öncə o, Azərbaycan dövlətindən və xalqından üzr istəsin, Qarabağda olmuş digər ecnəbilər kimi! Lapşindən böyük qəbahət edib bu dığa! Nə olsun futbol ulduzudur...Terroru dəstəkləyib! Fakt? Buyurun: vaxtilə Rusiyanın sports.ru saytında erməni jurnalist Ararat Mamberyan yazmışdı ki, Mxitaryan 2009-2012-ci illərdə hələ Ukraynanın "Şaxtyor" klubunda çıxış edərkən Xankəndiyə dəfələrlə gedib, xeyriyyə tədbirləri keçirib. Deməli, Qarabağdakı "futbol çempionatı" da onun adı ilə bağlıdır. Özü Bakıda oynayacaq, yetirmələri də Ağdərədə!!!

Hətta Bako Saakyan futbola dəstəyinə və xeyriyyə aksiyasına görə Mxitaryana "xalq müdafiəçisi" ordenini verib. Bütün bunlardan sonra o, nə üzlə Bakıya gəlmək istəyir?! Digər tərəfdən, Qarabağda separatçıların "çempionat" keçirməsinə susan UEFA nə haqla Azərbaycandan öhdəliklərinə əməl etməyi tələb edir?..

İşğalçı bizimlə bəhsə girməyə çalışır. Biz Cocuq Mərcanlıda ağac əkirik, onlar da Cəbrayılda... Biz futbola ev sahibliyi edirik, onlar da oyuncaq "çempionat" keçirir.

Ermənilərin Qarabağda çempionat keçirmək istədiyi Ağdərə stadionunu isə mərmilərlə şumlamaq pis olmazdı. Heç olmasa XİN və Müdafiə Nazirliyi oyunlara qatılmaq istəyənləri xəbərdar etsin...

# "Yararsız məhsullar ictimaiyyətə açıq şəkildə məhv edilməlidir"

## Eyyub Hüseynovdan SOS: "Vaxtı keçmiş, təhlükəli məhsulların son ünvanı yenə istehlakçılardır"

**Azərbaycan istehsalı olan 15,5 ton pomidorun Rusiyanın Dağıstan Respublikasına idxalına icazə verilməyib. Bu barədə qərarı Rusiyanın Dağıstan Respublikasının Baytarlıq və Fitosanitar Müşahidə üzrə Federal Xidməti verib. Məlumata görə, Federal Xidmətin əməkdaşları pomidorlarda Cənubi Amerika pomidor güvəsi adlı zərərverici aşkar edib.**



"Belə ki, bu pomidor yükü ilə bağlı protokol tərtib edilib və Azərbaycana geri göndərilib. Pomidor güvəsi idxal edildiyi təqdirdə, 50%-dən 100%-dək məhsulu məhv edə bilərdi" - məlumatda deyilir.

Cənubi Amerika pomidor güvəsi ən təhlükəli zərərvericilərdən biridir və ona qarşı yüz faiz effektli mübarizə vasitəsi yoxdur. Hətta kimyəvi preparatlardan istifadə də bu zərərvericiləri tam məhv etmir. Zərərverici məhsuldarlığa ciddi ziyan vurur, pomidorun içərisinə daxil olaraq onu sıradan çıxarır.

Qeyd edək ki, bir neçə dəfə də xarici ölkələrə ixrac olunan yararsız hesab edilən fındıq və fındıq ləpəsi Azərbaycana geri qaytarılıb. Ancaq bu məhsulların ölkəmizə gətirildikdən sonra yararsız məhsul kimi məhv edilməsi ilə bağlı informasiya daxil olmayıb.

Bəs görəsən bu durum necə tənzimlənməlidir? Həmin məhsullar daxili bazara yönəldilməklə istehlakçıların səhhətinə zərər vurur mu?

"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, 22 ildir istehlakçıların hüquqlarını qoruyur, lakin cəmi 2 dəfə yararsız və zərərli məhsulların yandırılmasında iştirak edə bilib: "Bu da çox çətinliklə baş tutub. Dəfələrlə demişəm, satışdan çıxarılan yararsız malları məhv edəndə kütləvi informasiya vasitələrinin gözü önündə edilsin ki, şəffaflıq olsun. Şəffaflıq yoxdur, bu vaxta qanunvericilik elə qurulub ki, zərərli malları satışdan çıxarırlar. Ancaq qaytarıb onu satanlara verirlər. O da gedib saxta sənəd gətirir ki, guya həmin malın hamısı məhv edildi. Bununla da məsələ bağlanır. Vaxtı keçmiş, təhlükəli malların son ünvanı yenə Azərbaycan istehlakçılarıdır. Qida Təhlükəsizliyi Agentliyinin qarşısında çox ciddi məsələlər qoyulub. Azərbaycan mallarının xaricə ixracı məsələsi də bunlardan biridir, lakin uzun illərdir ki, Azərbaycanın 3-4 malı xaricə ixrac oluna bilir. Bunlar kürü, balıq məhsulları və fındıq-qoz ləpəsidir. Qalan mallar Avropa bazarına çıxarıla bilmir".

Ekspertin sözlərinə görə, Qida Təhlükəsizliyi Agentliyinin qarşısında məqsəd qoyulub ki, bu hədəflərə çatmalıdır: "Buna çatmaq üçün o gərək ictimaiyyətlə, kənd təsərrüfatı işçiləri ilə yaxşı iş aparsınlar. Kənd təsərrüfatı işçilərinin yanında olsunlar, onlara kömək etsinlər. Bu yaxınlarda Azad İstehlakçılar Birliyinin işçiləri ilə mən təzə çıxan soğan, kartof və digər məhsulların yoxlamasını apardıq və gördük ki, nitritlərin miqdarı normadan iki dəfə artıqdır. Daxili bazarda artıq bazara çıxarılan mallar bu vəziyyətdədir. Ona görə də Qida Təhlükəsizliyi Agentliyi bu məsələləri həll etməlidir. Burada qeyri-şəffaflıq var, Azərbaycan istehlakçılarının həyatını da böyük təhlükə qarşısında qoyur, öz mənfi izlərini qoyur. Bunun nəticəsini biz apteklərdə böyük növbələrin yaranması və insanların iynə-dərmana möhtac qalması şəklində görürük. Çünki bu prosesin düzgün aparılmamasının qurbanları insanlarımızdır".

E.Hüseynov bildirdi ki, şəffaflığın təmin edilməsi üçün bu işdə ictimai təşkilatlar da iştirak etməlidir: "Qida Təhlükəsizliyi agentliyi elə bir rasional iş aparmalıdır ki, qarşıya qoyulan məqsədləri həll edə bilsin. Çox təəssüflər olsun ki, Qida Təhlükəsizliyi Agentliyi ictimaiyyətlə rasional iş apara bilmir. Şəffaflığın təmin olunması üçün orada ictimai təşkilatların təmsil olunması da şərtdir. Bununla bağlı baş nazirin müavini Əli Əhmədova da müraciət etmişəm. Lakin ictimaiyyətlə yaxınlaşma vəziyyəti sıfırdır. Biz çalışırıq ki, Qida Təhlükəsizliyi Agentliyinə dəstək verək, çünki vətəndaşlar tərəfindən bu iş dəstəklənməsə, nəticə olmayacaq. Təəssüf ki, sərhəddən qaytarılan bu cür zərərli məhsulları ilk baxışdan vətəndaşın tanıması mümkün deyil. Buna görə də, ekspertiza aparılmalı və həmin məhsullar satışdan çıxarılmalıdır. Azad İstehlakçılar Birliyi ekspertiza aparır. Qida Təhlükəsizliyi Agentliyi də ekspertiza aparmalı və yararsız məhsulları ictimaiyyətə açıq şəkildə məhv etməlidirlər".

❑ Nərgiz LİFTİYEVA,
"Yeni Müsavat"

# "Xəstəlik boğazıma qədər yayılıb" - Tünzalə

**Əməkdar artist Tünzalə Ağayeva yenidən onkoloji xəstəliyə tutulub. Musavat.com xəbər verir ki, aktrisa bu haqda sosial şəbəkədə yazıb:**

"Bu sözləri yazmaq mənim üçün çətindir. Təəssüflər olsun ki, xəstəliyim metastaz verdi və boğazıma qədər yayılıb. Milli Onkologiya Mərkəzində 6 kimyaterapiya alacağam, inşallah, sağalaram. Özümü hər an hər şeyə hazırlamışam, amma inanıram ki, yaxşı olacaq. Zəhram çox balacadır, onu böyütmək istəyirəm. Bütün müalicəm təmənnasız ediləcək".

Qeyd edək ki, aktrisa bir müddət öncə xərçəng xəstəliyindən əziyyət çəkdiyini açıqlamışdı. O, əməliyyat olub, terapiya aldıqdan sonra sağaldığını bildirmişdi.



❑ KÖNÜL,
Musavat.com

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019

**İqtisadçı Rövşən Əliyev adı Azərbaycan oxucusuna yaxşı tanış olan Kanadanın "Bombardier Inc." şirkəti ilə bağlı status paylaşıb. Həmin statusda şirkətin korrupsiya əlaqələrinin Dünya Bankı tərəfindən qeydə alınmasından söhbət açılır. İqtisadçının statusu belədir:**

maları üzrə jurnalistika Mərkəzi OCCRP-dir. Jurnalistlər aşkara çıxarıblar ki, Kanadanın beynəlxalq nəqliyyat infrastrukturu şirkəti olan "Bombardier Inc"in bu ölkədəki törəmə şirkəti "Bombardier Transportattion"un vasitəsi ilə böyük korrupsiyaya yol veriblər. Bundan sonra Rusiya və- sında həyata keçirilib. Birinci müqavilə üzrə "Bombardier" şirkəti tərəfindən "Ebilock-950" siqnalizasiya avadanlığı 126 milyon İsveç kronuna Londonda qeydiyyatdan keçmiş həmin "Multiserv Overseas" şirkətinə satılır. Bu şirkət isə avadanlığı bu dəfə 5,5 dəfə baha qiymətə, ovaxtkı məzənnə ilə Inc." şirkətinə korrupsiya barədə xəbərdarlıq etməsi sıradan bir hal deyil. Bu, zəncirvari reaksiya doğura, Azərbaycanla əlaqəli görülmüş işlər yenidən araşdırma mövzusu ola bilər. Bu isə ölkəmiz üçün də yaxşı heç nə vəd etmir. Vaxtilə İsveç prokurorlarının rusiyalı şirkət əməkdaşına irəli sürdükləri itti-

# Arif Əsgərovun ətrafında çənbər daralır - sabiq məmurun başı dərddə

## Ziya Məmmədovun keçmiş müavini beynəlxalq korrupsiya işinə görə həbs edilə bilər; **hüquqşünas:** "Dünya Bankı kimi mötəbər qurumun xəbərdarlığı sıradan hadisə deyil..."

"Dünya Bankı Kanadanın "Bombardier Inc." şirkətinə korrupsiya barədə xəbərdarlıq edib. Xəbərdarlıq məktubu avadanlıqların göndərilməsi kontraktı ilə bağlıdır. Darıxmayın, yəqin işin bir ucu gəlib bizə çıxacaq. 2013-cü ildə "Bombardier Inc." şirkəti Azərbaycan dəmir yollarının 500 km-lik bölməsində siqnal avadanlıqları quraşdırmaq üçün 340 milyon dollarlıq kontrakt bağlamışdı. Yəqin söhbət Kanada dollarından gedir, bu, 253 milyon ABŞ dolları edir. Ancaq yenə də çox görünür. Düşünürəm ki, o siqnal avadanlıqlarını qızıldan düzəldib "Swarovski daşları" ilə bəzəmirlər ki?"



2013-cü ildə bu məsələ qalxanda Azərbaycanın adını beynəlxalq aləmdə korrupsiya qalmaqalına bulaşdıran Arif Əsgərovun həbs ediləcəyi gözlənilirdi. Həmin günlərdə belə xəbərlər gəzirdi ki, sabiq nəqliyyat naziri Ziya Məmmədovun müavini olmuş Arif Əsgərovun "kitabı" bağlanıb, onu həbs edəcəklər. Amma bu iddialar özünü doğrultmadı. Onun başı üzərində həbs təhlükəsi 2013-cü ildə real görünürdü. Həmin il QSC-də külli miqdarda, daha dəqiq desək, 48 milyonluq yeyinti faktı aşkarlandı, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları QSC-nin marketinq şöbəsinin rəisi Arif Əsgərovun baldızı oğlu Rahib Hüseynovu həbs etdilər. R.Hüseynov 48 milyon manat dövlət əmlakını mənimsəməkdə ittiham olunurdu. Az sonra məlum oldu ki, R.Hüseynovu qabağa verib həbs etdirən də A.Əsgərovun özü olub. O, bu yolla oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovu məsuliyyətdən kənarda saxlamağı bacardı. Sonradan baldızının digər oğlunu da həbsə yolladı. O dövrdə Azərbaycanda Arif Əsgərovun ətrafında qalmaqallı olaylar səngimək bilmirdi. Ölkə xaricindən də "Bombardier İnc"lə əlaqəli iş materiallarının İsveç məhkəməsinə daxil olması da diqqəti bir daha ona yönəltmişdi.

Böyük yeyinti faktlarını üzə çıxaran isə İsveçin SVT telekanalı, TT agentliyi və "Radio Canada", habelə mütəşəkkil cinayətkarlıq və korrupsiya araşdır- təndaşı olan şirkət əməkdaşı həbs olunub. "Bombardier" şirkətinin bir neçə top-menecerinin "Azərbaycan Dəmir Yolları" QSC ilə 2013-cü ildə bağlanmış müqaviləyə görə Azərbaycanın vəzifəli şəxslərinə 56 milyon dollar yeyinti ötürülməsinə dair sövdələşmədə iştirak etdikləri üzə çıxdı. Qalmaqalda mərkəzi fiqur kimi Arif Əsgərovun adı hallanırdı. Söhbət "Bombardier"lə Bakı-Böyük Kəsik dəmir yolu xəttinin siqnal sisteminin modernləşdirilməsi ilə bağlı 2013-cü ildə imzalanmış müqavilədən gedirdi. Müqaviləyə əsasən, şirkət uzunluğu 503 km olan dəmir yolunda "İnterfilo 200" siqnal sistemlərini quraşdırmalıdır. Müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tərkibində idi və bu struktura Arif Əsgərov rəhbərlik edirdi. Həbs olunan Yevgeni Pavlovun vəkilləri bildirirdilər ki, o və "Bombardier" şirkətinin bir neçə top-meneceri Azərbaycanla korrupsiya sövdələşməsində ittiham olunurlar. "Bombardier" şirkəti ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında bağlanmış müqaviləyə əsasən, 46 siqnal avadanlığı birbaşa Azərbaycana göndərilir, ancaq pullar Londonda qeydiyyatdan keçmiş, nə ofisi, nə ünvanı, nə telefon nömrəsi olmayan hansısa şirkətə köçürülür. Sövdələşməyə əsasən, siqnalizasiya avadanlıqlarının təchizatı iki ayrı müqavilə əsa- 695 milyon krona və ya 104 milyon dollara Azərbaycana satır. İsveç prokurorluğu bildirir ki, Azərbaycan məmurları "Bombardier" şirkəti ilə bağlanmış müqavilədən bu fırıldaq mexanizm sayəsində "otkat" alıblar. İsveç hüquq-mühafizə orqanları diqqəti belə fakta yönəldir ki, 2013-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin elan etdiyi həmin tenderə "Bombardier" şirkətindən başqa bir neçə şirkət də qatılmışdı və onlar xeyli aşağı qiymət təklif etmişdilər. Lakin müqavilə "Bombardier"lə bağlanıb. Həmçinin üzə çıxıb ki, müqavilə üzrə işlərin görülməsi zamanı 56 milyon dollar Azərbaycan məmurlarına ötürülüb. Həmin məmurun Arif Əsgərov olması haqda xəbərlərə isə o, susqun yanaşdı.

Göründüyü kimi, Arif Əsgərov vəzifədə olarkən adı böyük korrupsiya qalmaqallarında keçib, büdcənin dağıdılması, millətin pullarının talan edilməsi, həm də Azərbaycanın adının beynəlxalq aləmdə korrupsiya mövzusunda hallanmasına yol açan hərəkətlər edib.

"Yeni Müsavat" əməkdaşı məsələ ilə bağlı hüquqşünas Əkrəm Həsənovun münasibətini öyrənib. Hüquqşünas deyir ki, ortada çox ciddi ittihamlar var: "Bu məsələnin beynəlxalq aləmin diqqət mərkəzində olması, Dünya Bankı kimi mötəbər qurumun "Bombardier ham üzrə azərbaycanlı məmurun adı hallanırdı. O dövrdə məhkəmə qeyri-müəyyən sonluqla nəticələndi. Hazırkı müraciət üzrə araşdırmalar başlansa, məsələnin hərtərəfli araşdırılacağı gözlənilədir. Belə olan halda cinayəti təsdiqini taparsa, məsələdə Azərbaycan tərəfindən iştirak etmiş məmurun cəzalandırılması qaçılmaz olacaq. Əgər İsveç məhkəməsinin hökmündə yazılırsa ki, azərbaycanlı məmur rüşvətxordur, ən azı bizim hüquq-mühafizə orqanları bununla bağlı istintaq aparmalıdırlar. Aparmırlarsa, bunu niyə etmədiklərinin səbəbini izah etməlidirlər. Bu iş üzrə isə İsveç məhkəməsinin hökmünün olacağı gözlənilir. Yəni bu məsələnin üstündən sükutla keçmək mümkün olmayacaq. Rüşvət və korrupsiya ilə bağlı qanunlar bütün dünyada, demək olar ki, eynidir. Yeni istintaqın aparılması üçün də elə də ciddi bir maneə yoxdur. Xatırlayırsınızsa, ortada ciddi ittihamlar vardı. "Bombardier İnc." şirkəti əməkdaşının digər əməkdaşlarla əlbir olmaqla, 340 milyon dollarlıq müqavilə bağlamaq üçün "Azərbaycan məmurunu ələ almaq barədə" ittiham səslənmişdi".

Hüquqşünas deyir ki, mümkündür ki, məsələ ölkə daxilində araşdırılıb qiymət verilməklə məsələnin beynəlxalq müstəvidə araşdırılmasının qarşısı alınsın: "Azərbaycan dövləti həmin korrupsiya əməli ilə bağlı vətəndaşı məhkəmə qarşısına çıxarıb məhkum etməlidir. Həmin məmur - sabiq məmurdur, indi vəzifədədir, fərq etməz - qanun qarşısında cavab verməlidir. Söhbət külli miqdarda rüşvət almış məmurdan gedir. Azərbaycan qanunlarına görə, belə əmələ yol vermiş şəxsi 12 il müddətinə azadlıqdan məhrum etmə cəzası gözləyir".

Yada salaq ki, "Bombardier" şirkətinin adı qarışan beynəlxalq rüşvət qalmaqalı dünya mediasında da geniş müzakirələrə yol açmışdı. Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# "MTN işi"ndən yararlanmağa çalışan dələduz illər sonra tutuldu

## Cinayətini pərdələmək üçün "zərərçəkmiş" qiyafəsinə girən şəxs həbs edildi

**Tikinti materialları, özəlliklə taxta-şalban biznesi ilə məşğul olan 8 nəfərə qarşı dələduzluqda ittiham olunan Qədim Ədilov həbs olunub. Bu şəxs barəsində "Yeni Müsavat"ın 11.09.2017-ci il tarixli sayında "Aldadılmış iş adamları "Dələduz Qədim Ədilov cəzalandırılsın!" şüarı ilə aksiya keçirəcək"**

(http://musavat.com/news/aldadilmis-is-adamlari-dele-duz-qedim-edilov-cezalandirilsin-suari-ile-aksiya-kecirecek _467281.html ttp://musavat.com/news/aldadilmis-is-adamlari-dele-duz-qedim-edilov-cezalandirilsin-suari-ile-aksiya-kecirecek _467281.html) sərlövhəli yazı dərc etmişdik.

Son məlumatlara görə, Qədim Ədilov həbs olunub. ONA-nın məlumatına görə, "Azəri AQA" MMC-nin rəhbəri Qədim Ədilov biznes qurmaq adı ilə vətəndaşlardan 2 milyon manata yaxın pul alıb mənimsəməkdə təqsirli bilinir. Zərərçəkənlər arasında Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin sabiq rəisi Cavad Şıxəliyev də var. Q.Ədilov C.Şıxəliyevin etibarından sui-istifadə edərək onun 50 min dollar pulunu mənimsəyib. Çoxsaylı vətəndaşlardan daxil olan şikayət əsasında Binəqədi Rayon Polis İdarəsində faktla bağlı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb. İstintaq orqanı Q.Ədilovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı Binəqədi rayon Məhkəməsinə təqdimat verib. Məhkəmə mayın 3-də təqdimata baxaraq Q.Ədilov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçib.

Qeyd edək ki, Q.Ədilov bundan əvvəl dələduzluq əməllərini ört-basdır etmək üçün özünü "MTN işi"ndə zərərçəkən kimi təqdim etməyə çalışsa da, istintaq onu zərərçəkən kimi tanımayıb. Hələ 2017-ci ildə bir qrup sahibkar baş prokuror Zakir Qaralova, ölkə rəhbərliyinə Qədim Ədilovun əməlləri ilə bağlı müraciət ünvanlamışdılar. Həmin müraciətdə sahibkarlardan bir qismi - Məmməd Cəfərov, Natiq Hümbətov, Rövşən Məhərrəmov və Xaləddin Yusibov Qədim Ədilov tərəfindən aldadılaraq bütün pullarının, əmlaklarının əllərindən alındığını yazırdılar.

Sitat: "Diqqətinizə çatdırmaq istəyirik ki, Qədim Ədilov bir mənzili 2-3 adama satan mənzil dələduzlarını çox arxada qoyub. O, 2014-cü ildə hər bir vaqon taxta məhsulunu 8 adama "sataraq" pulları mənimsəyib və nəticədə heç kəsə heç bir mal vermədən bizlərin hər birinə 100 min dollardan 200 min dollara qədər pul "atıb". İnşaat malları bazarında sadəcə 7 nəfərin 750 min dollar, ümumilikdə 10-15 nəfərin 1 milyon 800 min dollar pulu dələduz Qədim Ədilov tərəfindən mənimsənilib".

Müraciət müəllifləri yazırlar ki, 2015-ci il oktyabrın 10-da şikayətləri əsasında Q.Ədilov barəsində CM-nin 178.2.2 və 178.3.2 maddələri ilə 150066098 nömrəli cinayət işi başlanıb: "Sonradan dələduzun özü kimi dələduz məsləhətçiləri onun adını "MTN işi" üzrə "zərərçəkmişlər"siyahısına saldırdılar. Bundan sonra o, prokurorluqdakı havadarları vasitəsi ilə cinayət işinin xitamına nail oldu. Hazırda Qədim Ədilov öz dələduzluq əməllərini davam etdirərək, yeni-yeni vətəndaşların pullarını ələ keçirir və ictimai yerlərdə "mən prokurorluq işçilərinə pul ödəyirəm, mənə heç kəs heç nə edə bilməz" deyərək lovğalanır. Bizim çoxsaylı şikayət ərizələrimiz lazımi yerlərə çatmır".

Qədim Ədilov adını "MTN işi"nə zərərçəkmiş kimi "sırımaq"la adamlardan yığdığı pulları MTN-də əlindən alınması təsəvvürünü yaratmağa cəhd göstərirdi. Hətta Sabunçu Rayon Məhkəməsinin binasında ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov və onunla birlikdə həbs edilən üç MTN əməkdaşının məhkəməsi zamanı da zərərçəkmiş qismində dindirilmişdi. Lakin sonradan onun zərər çəkmədiyi üzə çıxmışdı.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# "Açıq sualların tətbiqi bəxt amilini aradan qaldırır"

## Təhsil eksperti qəbul imtahanlarından danışdı



**Mayın 12-də Dövlət İmtahan Mərkəzi (DİM) 2019/2020-ci tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. İmtahanda iştirak etmək üçün ərizə vermiş abituriyentlər mayın 6-dan etibarən DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap ediblər. Buraxılış vərəqəsi ilə yanaşı, onlara "Yaddaş kitabçası" da təqdim olunub. Burada abituriyentlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılıb.**

Qəbul imtahanlarının gedişini dəyərləndirən təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, I ixtisas qrupu ən çox abituriyent imtahan verən qrupdur: "Yeni qaydalara görə, I mərhələdə (buraxılış imtahanında) abituriyentlər 3 fəndən (ana dili, riyaziyyat, xarici dil) maksimum 300 bal, II mərhələdə (qəbul imtahanında) isə 3 fəndən (ixtisas qruplarına uyğun) maksimum 400 bal olmaqla cəmi 700 bal toplaya bilərlər. Artıq 18 ildir ki, alternativ variantlarla sualları cavablandırmağa öyrəşən abituriyentlərə neçə ildir ki, açıq testlər də verilir. 7 ildir ki, qəbul imtahanlarında müəyyən fənlər üzrə açıq tipli test tapşırığı təqdim olunur. Qapalı test tapşırığı o test tapşırığıdır ki, imtahan iştirakçılarına sualın cavabı variantlarla təqdim olunur və o, doğru bildiyi cavabı seçir. Açıq tipli test tapşırığında isə iştirakçı cavabı özü yazır. Nəzərə alaq ki, qapalı test suallarının cavablandırılmasında təsadüfi amillər, yəni müəyyən qədər bəxt də rol oynayır. Çünki qarşısındakı hər bir sualın 5 mümkün cavabına baxan abituriyent onlardan birinin düz olması haqqında təsadüfi fikrə gəlir və həmin cavabı da qeyd edir. Bununla da o, imtahanda uğur qazanmaq şansını artırır".

Ekspertin sözlərinə görə, açıq sualların tətbiqində isə bu təsadüfilik amili aradan qaldırılır: "Maraqlı hal odur ki, açıq sualı cavablandıra bilməyən abituriyent digər bir abituriyentin bu suala verdiyi istər düz, istərsə də səhv cavabı köçürə bilməyəcək. Həmin suallara verilmiş səhv cavablar da abituriyent üçün cərimə kimi hesablamayacaq. Ümumiyyətlə, 2019-cu ildə keçiriləcək qəbul və buraxılış imtahanları əvvəlki illərlə müqayisədə aşağı nəticələrin olması ilə seçiləcək. Çünki bu il tətbiq olunan yeniliklər tam şəkildə imtahan iştirakçıları tərəfindən mənimsənilməyib. Amma imtahan cavablarının iki ay müddət keçəndən sonra elan olunması şagirdlər arasında psixoloji gərginlik yaradır. Bu il imtahan nəticələrinin zəif olmasına təkcə yenilik təsir göstərməyəcək, eyni zamanda yoxlama zamanı insan faktorunun olması da təsir göstərəcək. Belə ki, hər bir yazı işi əvvəlcə "scan" olunur və 2 marker tərəfindən qiymətləndirilir. Markerlərin qiymətləri arasında fərq yarandıqda həmin yazı işi proqram tərəfindən 3-cü markerə göndərilir. Yoxlama zamanı markerin kompüterinin monitorunda yazı işinin müəllifi haqqında heç bir məlumat (ad, soyad, ata adı, şagird kodu, ünvan və s.) verilmir. Monitorda yalnız yazı işi, yazı işini qiymətləndirmək üçün meyarlar və qiyməti daxil etmək üçün müvafiq sahə göstərilir".

K.Əsədov onu da qeyd etdi ki, dünən keçirilən imtahanların nəticələrinin 2 ay ərzində açıqlanması müəyyən qədər narahatlıq doğuracaq: "Çünki indiyə qədər imtahanın birinci mərhələsinin də nəticələri açıqlamayıb. Nəzərə alsaq ki, bu gün (dünən-red.) keçirilən imtahanların nəticələri də gec açıqlanacaq, o zaman 30 may 12 iyun arası ikinci dəfə imtahanda iştirak etmək üçün qeydiyyatın olması müəyyən qədər tərəddüd yaradacaq. Ümumiyyətlə, bu gün keçirilən imtahanlar böyük təcrübə toplamağa imkan verəcək".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# İrana qarşı metallurgiya sanksiyası: Bakıda evlər bahalaşa bilərmi?

## İqtisadçi ekspert: "ABŞ-ın sanksiyaları kifayət qədər ciddidir, mövcud vəziyyətdə hansısa proqnoz vermək mümkün deyil..."

**ABŞ İranın metallurgiya sənayesinə sanksiya tətbiq etməyə başlayıb. Ağ Evin bununla bağlı yaydığı açıqlamada bildirilir ki, sanksiyalar İranın neftdənkənar ən böyük gəlir mənbələrindən biri sayılan metallurgiya sənayesinə investisiya qoyan, yaxud İranda istehsal olunan metallurgiya məhsullarını alan şirkətlərə şamil olunacaq.**



ABŞ prezidenti Donald Trampın imzaladığı əmrlə bağlı Konqresə göndərdiyi izahat məktubunda qeyd olunur ki, qərar İranın nüvə silahı əldə etmək yönündə fəaliyyətlərini maliyyə mənbələrindən məhrum etməyə yönəlib.

Sanksiyalar İran metallurgiya sektorunda işləyən, yaxud buradakı şirkətlərin səhmlərinə və digər qiymətli kağızlarına malik olan fiziki və hüquqi şəxslərə şamil ediləcək.

Trampın əmri metallurgiya sektoru üzrə İrandan əhəmiyyətli həcmdə məhsul və xidmət alanlara qarşı yönəlib. Daha dəqiqi, İranda dəmir, alüminium, polad və mis hasilatında, daşınmasında, satışında və nəqlində iştirakçı olan bütün fiziki və hüquqi şəxslər ABŞ-ın "qara siyahısı"na daxil ediləcəklər. Həmçinin bu şəxslərə hər hansı hüquqi, iqtisadi və maddi yardım edənlər də cəzalandırılacaq.

Azərbaycan İrandan polad, dəmir və alüminium məmulatları idxal edir. Ötən il İrandan armatur idxalı ətrafında böyük qalmaqal da yaranmışdı. Belə ki, ilin 9 ayında İrandan 120 min ton armaturun idxal olunması Azərbaycandakı istehsalçıları narazı salmışdı. Onların müraciəti əsasında İrandan idxal olunan armaturun gömrük rüsumuna cəlb olunan dəyəri bir ton üçün 200 dollardan 500 dollara qaldırılıb. Buna baxmayaraq, idxal əvvəlki həcmdə olmasa da, davam etdirilir. Armaturdan daha çox fərdi evlərin və binaların, eləcə də obyektlərin inşasında geniş istifadə olunur. Bəs İran armaturuna tətbiq edilən sanksiya, Azərbaycanda mənzil bazarına necə təsir edəcək?



"Yeni Müsavat"a danışan iqtisadçı alim Fikrət Yusifov bildirdi ki, mövcud sanksiyaların Azərbaycanda mənzil bazarına təsir edəcəyini düşünmür: "Çünki alternativ bazarlar çoxdur. Rusiya, Ukrayna bazarı mövcuddur və eləcə də daxildə armatur istehsalı həyata keçirilir. Ancaq təbii ki, ABŞ-ın tətbiq etdiyi sanksiyalar kifayət qədər ciddidir. Bu sanksiyalar təkcə onun istehsalçılarına və satışı ilə məşğul olan yerli kampaniyalara deyil, eyni zamanda, xarici kampaniyalara da xəbərdarlıqdır. Amerika Maliyyə Nazirliyi çox ciddi şəkildə bu sanksiyaların tətbiqini izləyəcək. Bəhs etdiyimiz sanksiyalara düşməmək üçün təbii olaraq, İran istehsalı olan bu məhsullardan imtina gərəkdir. Yaxud başqa bazarlarda eyniadlı məhsulları axtarmaq lazımdır. Olsun ki, armaturun qiymətlərində müəyyən qədər fərq olsun. Bu, 3-5 faizdən çox olmaz. Çünki bildiyimiz qədər İran armaturu daha ucuz idi ki, bunu alıb gətirməyə də təşəbbüs çox idi. Ancaq ciddi bir dəyişikliyin olacağı, qiymət artımına gediləcəyi inandırıcı deyil".

ABŞ-ın sanksiyalarının uzun müddətli olub-olmayacağı məsələsinə gəlincə, ekspert aşağıdakıları söylədi: "İran neftini ixrac edən 8 ölkəyə sanksiya tətbiq edilməmişdi. Gözlənilirdi ki, may ayının 1-dən etibarən həmin ölkələrə də sanksiya qoyulacaq. Ancaq son məqamda Tramp bu sanksiyanı tətbiq etməkdən imtina etdi. Müvəqqəti olaraq o, bu sanksiyaların tətbiqini dayandırdı. Qeyd edilən proses nə qədər davam edəcəksə, bunu söyləmək çətindir. Qərara ancaq ABŞ-ın administrasiyası və İranın nüvə proqramlarını reallaşdırması ilə bağlı mövqeyi və digər faktorlar təsir edəcək. ABŞ 12 şərti irəli sürüb ki, bu şərtlərin də İran tərəfindən yerinə yetirilməsi, praktiki olaraq mümkün deyil. Çünki İranın Yaxın Şərqə öz mövqeyi və siyasəti var. Bu fonda İranın şərtləri qəbul etməsi də inandırıcı deyil. Həmçinin onu da nəzərə alaq ki, yuxarıda qeyd etdiyimiz 8 ölkə ilə bağlı sanksiyanın mayın 1-dən tətbiq olunacağı dəfələrlə vurğulanırdı və bu istiqamətdə sərt mövqe vardı. Ancaq görürük ki, bu, uzadıldı. Hazırkı şəraitdə metallurgiya sahəsinə tətbiq edilən sanksiyaların nə qədər uzadılacağını söyləmək çətindir. Bu, ABŞ-ın Yaxın Şərqdəki siyasəti və yuxarıda da qeyd etdiyimiz kimi, İranın nüvə siyasətindən asılı olacaq. Ona görə də burada zamanın faktorlara bağlılığı əsasdır. Qabaqdan fikir söyləmək çətin məsələdir. Bunu heç kim söyləyə bilməz. Çünki elə situasiya yaranar ki, Tramp sanksiyaları geri götürər. Yaxud daha da ağır sanksiya tətbiq edər. Mövcud vəziyyətdə hansısa proqnoz irəli sürmək mümkün deyil".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

N 102 (7272) 13 may 2019

# "Azərbaycan seçimini etməlidir, zaman çoxdan yetişib"

## Qüdrət Həsənquliyev: "Rusiya bunu desə, Azərbaycan açıqca qərbyönlü xətti götürməlidir"

**Mayın 13-14-də Brüsseldə "Şərq tərəfdaşlığı" proqramının 10 illiyi münasibətilə mühüm tədbirlər keçiriləcək. Avropa İttifaqı institutlarının liderləri, Avropa İttifaqına üzv ölkələrin və "Şərq tərəfdaşlığı" ölkələrinin dövlət və hökumət başçılarının iştirak edəcəyi görüşdə Azərbaycanın da yüksək səviyyədə iştirakı gözlənilir, bununla bağlı qurum rəsmiləri dəfələrlə arzularını dilə gətiriblər.**

Deputat, BAXCP sədri Qüdrət Həsənquliyevlə Qarabağ mövzusunu da əhatə edən budəfəki söhbətimizdə əvvəlcə bu mövzudan bəhs etdik.

***- Qüdrət bəy, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlıq istiqamətində atdığı addımları necə dəyərləndirmək olar? Dünyanın aparıcı təşkilatı ilə əməkdaşlığın perspektivləri barədə nə deyə bilərsiniz?***

- Əlbəttə, biz Avropa ilə əməkdaşlıq etməliyik. Hətta Rusiyanın özü də Avropa ilə əməkdaşlığa can atır. Biz görürük ki, Avropanın tətbiq etdiyi sanksiyalardan Rusiya nə qədər pəjmürdə olur və buna öz etirazını bildirir. Digər tərəfdən, bizim əsas valyuta gəlirlərimiz Avropanın hesabınadır. Yəni biz neftimizi və qazımızı İsrailə və Avropa ölkələrinə satırıq. İsrail Yaxın Şərqdə yerləşsə də, özünü bir Avropa dövləti hesab edir, hətta Avropa Çempionatına qatılır, bir Qərb dövləti olaraq qəbul olunur. Rusiya özü də enerjidaşıyıcılarını Avropa bazarına çıxarır. Buna görə də Avropa ilə münasibətlərimizin yaxşı olması məqsədəmüvafiqdir. Bundan başqa, Avropa demokratik, hüquqi dövlət quruculuğu prosesində böyük uğurlara imza atıb. Azərbaycan bundan xeyli dərəcədə faydalanmalıdır. Yəni onlar insan haqları, qanunun aliliyi ilə bağlı ali dəyərləri mənimsəyib. Bu baxımdan onların təcrübəsindən öyrənməliyik və öyrənməli olduğumuz çox şey var.

***- Bu əməkdaşlığın riskli tərəfləri varmı?***

- Azərbaycan Qərbə inteqrasiya yolu tutmayıb. Yəni imzalanacaq saziş də Azərbaycanın Qərbə inteqrasiya olunması istiqamətində hansısa bir addım deyil. Amma mən hesab edirəm ki, Azərbaycan seçim etməlidir, zaman çoxdan gəlib çatıb. Azərbaycan Qoşulmama Hərəkatından imtina etməli, Rusiya ilə danışıqlara başlamalıdır. Əgər Rusiya Qarabağın azad olunması istiqamətində bizə dəstək verəcəksə, o zaman Azərbaycan Avrasiya İqtisadi Birliyinə və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ola bilər, təbii, əgər Rusiya bunu istəyirsə...

***- Söhbətimiz ataşkəsin 25 illiyinə təsadüf edir. Yeri gəlmişkən, bu günlərdə sabiq xarici işlər naziri Tofiq Zülfüqarov da Azərbaycanın Ermənistanla deyil, məhz Rusiya ilə danışıqlar aparması təşəbbüsü ilə çıxış etdi. Əvvəllər siz belə təkliflə dəfələrlə çıxış etmişdiniz...***

- Tamamilə doğrudur. Əgər Rusiya rəsmiləri gəlib İrəvanda rəsmən deyirlərsə ki, Ermənistan bizim forpostumuzdur və prezident qarışıq, deməli, onlar da Rusiyanın forpostu olduqlarını qəbul edirlər. Biz də bunu daim deyirik ki, Ermənistan Rusiyanın forpostudur. Əgər Rusiyanın forpostudursa, Dağlıq Qarabağ məsələsində necə müstəqil qərar qəbul edə bilər? Əgər müstəqil qərar qəbul etmək səlahiyyəti yoxdursa, onunla danışıq aparmağın nə mənası var? Azərbaycan rəsmiləri də, biz də vaxtaşırı deyirik ki, Ermənistan həyati mənafeləri bu münaqişəni Azərbaycanla tez bir zamanda tənzimləməyi tələb edir, Ermənistanın iqtisadi inkişafı Azərbaycanla yaxşı münasibətlərin qurulmasından keçir, yalnız bu halda Ermənistan regional layihələrə, kommunikasiya xətlərinə qoşula bilər və s. Siz elə bilirsiniz ki, Ermənistandakı siyasətçilər bunu başa düşmür? Gözəl başa düşürlər. Amma onlar erməni xalqına deyə bilməzlər ki, biz də başa düşürük, Azərbaycan xalqı ilə barışmalıyıq, amma Azərbaycanla barışsaq, bizim başımıza güllə sıxacaqlar. Erməni siyasətçiləri özlərinin təhlükəsizliyi və siyasi karyeraları üçün məcburdurlar özlərini elə göstərsinlər ki, Rusiyanın istədiyini söyləsinlər. Tutaq ki, desinlər Qarabağ müstəqil olmalıdır, yalnız Dağlıq Qarabağın "müstəqilliyinin" qarşılığında biz işğal olunmuş rayonları - Kəlbəcər, Laçın da istisna olmaqla - qaytara bilərik. Ermənilər əslində barışığa və sülhə imkan verməyən mövqeni ona görə sərgiləyirlər ki, bunun Rusiyaya lazım olduğunu anlayırlar. Yəni onlar qanmazlıqdan bu mövqeni sərgiləmirlər. Həm də belə mövqe ortaya qoymaqla xalq qarşısında sifətlərini qoruyub-saxlamaq istəyirlər ki, biz Rusiyanın mövqeyindən çıxış etmirik, öz siyasi mövqeyimiz Dağlıq Qarabağın müstəqil olmasından ibarətdir. Amma mən sizi tam əmin edirəm ki, erməni siyasətçilərin içərisində Qarabağın müstəqil olmasını istəyən siyasətçilərin 95 faizi həmin mövqenin onların siyasi karyeraları üçün vacibliyini anladıqlarından bu mövqeni sərgiləyirlər. Ona görə də daim demişəm ki, bunu gizlətməyin adı yoxdur, yerli-yersiz "Rusiya bizim qardaşımızdır, dost dövlətdir, vasitəçilikdir" demək... Hələ vasitəçiliyinə görə Rusiyaya təşəkkür də edirik. Bu siyasətə son qoyulmalıdır. Amma Rusiyaya deyilməlidir ki, biz sizinlə həqiqi dost ola, həqiqi maraqlarınızı qoruya bilərik. Bu şərtlə ki, siz problemi həll etməyimizə imkan verməlisiniz. Sizin də maraqlarınız Azərbaycanın Avrasiya İttifaqına üzv olmasından keçirsə, böyük məmnuniyyətlə, qoşulaq. Yaxud KTMT-yə üzv olmaqdırsa, qoşulaq və s. Azərbaycan bunu Rusiya ilə açıq danışmalıdır. Yox, əgər Rusiya desə ki, bizi bu işə qatmayın, yenə də özünü o yerə qoysa ki, nə baş verdiyini guya başa düşmür, "biz sadəcə, vasitəçiyik, dinc yolla bu problemi həll etməyə çalışırıq" desə, "necəsən, özümü qoyum qanmazlığa, atan yansın" siyasəti tutulsa, o halda Azərbaycan qərar verməlidir.



**"Hər gün Ermənistanın şəhərlərinə 1-2 erməni hərbçinin meyiti aparılmalıdır"**

**"Dağlıq Qarabağdakı erməniləri qovub Ermənistanın indiki sərhədləri daxilinə tökmək bir neçə günün işidir, erməni xalqı gərək bunu anlasın..."**

***- Məsələn, hansı qərarı?***

- O zaman Azərbaycan açıq-açığına qərbyönümlü bir siyasi xətti götürməli, Avroatlantik məkana inteqrasiya xətti yürütməlidir. Mən demirəm ki, biz Rusiyaya müharibə elan etməliyik, onun düşməni olmalıyıq. Yox! İndiki kimi, böyük qonşu dövlətlə əməkdaşlıq davam etməlidir. Amma Azərbaycan açıq-açığına sırf qərbyönümlü, Avroatlantik məkana inteqrasiya yönümlü addımlar atmalıdır.

***- Amma bu da riskli sayılır. Moskvanın sürprizlərini nəzərə alırsınızmı?***

- Ən pis variant odur ki, Rusiya Dağlıq Qarabağın "müstəqilliyini" tanıya bilər. Tanısın. Bu, onsuz da heç nəyi dəyişməyəcək. Tanıdı-tanımadı, Dağlıq Qarabağ onsuz da işğal olunub və məskunlaşdırılır. Gücümüz olsa, tanıdı-tanımadı, vurub torpaqlarımızı işğaldan azad edəcəyik. Gücümüz olmayacaqsa da, torpaqların işğal altında tanınmış, yaxud tanınmamış halda qalması heç nəyi dəyişmir. Mən demirəm ki, Avroatlantik məkana inteqrasiya halında Qərbin bütün dairələri Azərbaycana dəstək verəcək. Yox, xristian həmrəyliyinə görə yenə də Ermənistanı dəstəkləyən olacaq. Amma biz Qərbin müəyyən dairələrinin dəstəyini ala bilərik. Bu baxımdan Azərbaycan seçim eləməlidir. Yəni indi davam edən - həm Rusiya, həm Qərblər müəyyən məsafədə dayanmaq siyasəti Qarabağı işğal altında saxlayır, problemin həllinə heç bir töhfə vermir. Neytral siyasət, Qoşulmayanlar Hərəkatında olmaq Qarabağ probleminin həllinə töhfə vermir. Tarix boyu da belə olub. Ölkələr müharibə aparanda özlərinə müttəfiq axtarıblar, bitərəflikləri elan etməyiblər.

***- Türkiyənin hərbi bazalarının Azərbaycanda yerləşdirilməsinə necə baxırsınız?***

- Əgər Rusiya ilə danışıqlarımız alınmasa, dediyim kimi, Azərbaycan öz xarici siyasət kursunu kəskin şəkildə dəyişməlidir. Onda Azərbaycan Gürcüstan, Ukrayna kimi, NATO-ya, Avropa Birliyinə üzvlük üçün rəsmi müraciət etməlidir. O müraciətlər olarsa, əlbəttə, NATO üzvü kimi Türkiyənin də gələcəkdə Azərbaycanda hərbi bazasının yaradılması mümkün görünür. Amma indiki halda, açığı, bu, bir az problematikdir. Həm də təəssüf ki, Türkiyənin özünün NATO-dakı aparıcı dövlətlər - Almaniya, Fransa, ABŞ-la münasibətlərində problemlər var. Ankaranın siyasətinə görə Türkiyəni sıxırlar. İkincisi də Azərbaycanın indiki yürütdüyü neytral siyasət ona imkan vermir ki, Türkiyənin burada bazası olsun. Biz Qoşulmayanlar Hərəkatının üzvüyük, Türkiyənin Azərbaycanda hərbi bazası necə ola bilər? Amma Avropaatlantik məkana inteqrasiya xətti tutsaq, əlbəttə, o zaman Türkiyənin burada hərbi bazası da yarana bilər.

***- Qüdrət bəy, keçən il Nikol Paşinyan hakimiyyətə gələndə ümidlər var idi ki, "müharibə partiyası"nın üzvü olmayan bu adamın hakimiyyəti dövründə Qarabağla bağlı anlaşma əldə oluna bilər. Amma erməni baş nazir sələflərindən daha çox radikallıq nümayiş etdirməkdədir, hətta bu günlərdə Azərbaycanın Şuşasında Azərbaycan "Yallı"sına oynadı. Belə olan təqdirdə Bakının Qarabağla bağlı siyasəti necə olmalıdır?***

- Açıq deyirəm, Paşinyan bilir ki, Moskvanın ona münasibəti birmənalı deyil və qərbyönümlü siyasətçi olduğu üçün Rusiyada ona çox da güvənmirlər. Ona görə də belə mövqe nümayiş etdirir ki, ayağını Rusiyanın cızdığı dairədən bir santimetr də kənara qoymayacaq.

***- Yəni Şuşada o mahnını sifariş edən də Rusiyadır?***

- Mən o fikirdə deyiləm ki, ruslar ermənilərə deyiblər gedin, Şuşada tədbir keçirin! Amma məsələnin mahiyyəti Moskvanı sakitləşdirməkdən ibarətdir. Bu, Azərbaycandan çox, Moskvaya verilən mesajdır. Ona görə də deyirəm ki, Moskva ilə oturub danışmaq lazımdır. Nəinki Paşinyan, Ermənistanda istənilən bir siyasətçi Qarabağla bağlı fərqli mövqe sərgiləyə bilməz. Onların fərqli mövqe sərgiləmək imkanları sadəcə, yoxdur. Erməni millətini də ağır xəstəliyə yoluxdurublar. Bu xəstəliyin müalicəsinin də bir yolu var... Azərbaycanda cəhalətə yuvarlanan insanlar "cin çıxartmaq" üçün insanları tikanlı çubuqlarla döyürdülər (Gülür) Ermənilərin müalicəsinin yeganə yolu budur ki, bir Dağlıq Qarabağ ətrafındakı 3-4 rayonu işğaldan azad edirik və ondan sonra erməni xalqı bir növ ayılacaq, başa düşəcək ki, yox, vəziyyət onların düşündüyü kimi deyil. Sovet vaxtı Dağlıq Qarabağda 120 min erməni yaşayıb. Düzdür, indi bir az Suriyadan, bir az Ermənistandan köçürmələr nəticəsində sayı artırılar. Amma 240 minə qədər azərbaycanlını necə bir neçə gün ərzində Ermənistandan qovub çıxartdılar? Dağlıq Qarabağdakı erməniləri qovub Ermənistanın indiki sərhədləri daxilinə tökmək bir neçə günün işidir, erməni xalqı gərək bunu başa düşsün. Ona görə də deyirəm, gərək Rusiya ilə anlaşıb bir neçə rayonu azad edək ki, ermənilər razılaşmaya getsinlər. Yenə deyirəm, hər şey Azərbaycan rəhbərliyinin hansı siyasi xətti tutacağından asılı olacaq. Fakt budur ki, bu günə qədər davam edən siyasət münaqişəni dondurulmuş vəziyyətdə saxlayır. Hətta əvvəllər təmas xəttində və sərhəddəki atışmalar erməniləri ciddi şəkildə narahat edirdi, işğalçı əsgərlərin öldürülməsi daxildə narazılıq yaradırdı...

***- Son günlərdə iki erməni əsgəri ölümcül vəziyyətdə yaralanıb...***

- Yox, mən hesab edirəm ki, hər gün işğalçı ordunun əsgərləri öldürülməlidir. Hər gün Ermənistanın şəhərlərinə 1-2 erməni hərbçinin meyiti aparılmalıdır...

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Avropa tərəfdaşlığından məmnun

Zamin HACI
zaminhaci@gmail.com

**Bəzən adamın inanmağı gəlmir ki, biz 20 ilə yaxındır Avropa Şurasının üzvüyük. Ancaq inanmalıyıq. Çarəmiz yoxdur. İnanc işində şübhə eləmək kafirlərə xasdır. Bizim mübarək vətəndə bir çox şeylərə yalnız inanc müstəvisində baxmaq lazımdır. Praktik, əllə toxunula bilən, gözlə görülən zadlar əslində fanidir, biz bunu yaxşı başa düşürük. Əsas odur qəlbimiz yaşasın! Qədim latın ata sözündə deyilən kimi: “Amor non est medicabilis herbis”. Tərcüməsi odur ki, məhəbbəti otlarla müalicə eləmək mümkün deyildir.**

O cümlədən, Avropa İttifaqının bir Şərq Tərəfdaşlığı Proqramı da vardır, təzəlikcə Azərbaycanın ona üzv olmağından 10 il keçdi. Bu 10 ildə ölkəmiz Avropa ilə tərəfdaşlıqdan hansı uğurlar qazanmışdır, onu elə idarənin - Avropanın təzəcə yaydığı mətbuat üçün açıqlamadan görmək olardı, hərçənd, bunu hansı mətbuat üçün yayıblar, o da uca millətimizə şəbi-yelda, yəni ilin ən uzun gecəsi kimi qaranlıqdır. Şair bu yerdə görək ləléyi əlinə alıb, laptopunda Vord faylı açaraq nə deyibdir: “Sayeyi-rəyəti-iqbali yetən yerlərdə, Ruzigarini ədunin şəbi-yelda eylər”. Düzü başa düşmədim Füzuli babamız burada nə deyibdir, bəlkə demək istəyir əgər İqbal Ağazadə parlamentdə qalsaydı bundan Avropa İttifaqı ilə tərəfdaşlıq və dostluq münasibətlərimizə daha böyük xeyir olardı. Niyə belə yazıram? Çünki biz Aİ ilə tərəfdaşlığa başlayanda 525 dənə gündəlik qəzetimiz var idisə, indi heç bir əlin beş barmağı qədər mətbuat qalmayıbdır, press-köşklərdə isə məktəblilər üçün ştuçnu siqaret satırlar. Bəs o zaman bu mətbuat açıqlaması nəyə lazımdır? Yəqin lazımdır. Bax: yuxarı. Şübhə eləyənin barmaqları qırılsın bu əziz ayda. Ya rəb. Yenə hörmətli şairdən misal gətirsək, aldı görək nə dedi: “Füzuli buldu gənci-afiyət meyxana küncündə, Mübarək mülkdür, ol mülk viran olmasın, ya rəb!”. Bunu artıq hamımız aydın başa düşürük, şairin açdığı kafeni icra hakimiyyəti uçurtmaq istəyir, o isə yuxarılara ərizə yazır. Məncə şikayət ünvanına yetişər, bu saat hamının məktubuna baxırlar. Hətta yazılmayan məktublara da baxırlar.

Hərçənd, başqa xeyirlər də vardır, olmamış deyildir. Misal üçün, elə həmin açıqlamada yazmışdılar ki, Aİ-dən alınan qrantlar, pullar hesabına bir azərbaycanlı atasından qalma kafeni yekəldib çörəkxana və restoranlar şəbəkəsinə döndəribdir. Başqa birisi arı saxlamağa başlayıbdır, həmin arılar isə nəinki bal verir, həm də Avropadan gələn qonaqlarımızın dodağından çalır və onları ucuz qiymətə Ancelina Coliyə bənzədirlər. İndi özünüz düşünün, biz Avropa ilə yaxınlaşmasaq, həmin çörəkxanadan təzə buğda çörəyinin xoş ətri asimana bülənd olub erməniləri umsuq edərdimi? Arılar bulvarda şəhər icra hakimiyyətinin saldığı qazonda, rəhmətlik rəis Nazim müəllim demiş, “çimənnikdə” vızıldaşardılarmı?

Lakin ötən müddətdə biz özümüz Avropa İttifaqına nə qədər xeyir vermişik, nədənsə əclaf firənglər bu haqda susmağa üstünlük verirlər. Niyə, balam? Bizim sizə verdiyimiz xeyir bəyəm fındıq qabığı, çürük qoz-filandır? Bu 20 ildə Avropada nə qədər villa almışıq, şirkət açmışıq. Qaz vurub qazanınızı doldurmuşuq. Ən yoluq biznesmen-məmurumuzun Londonda minimum bir çayxanası vardır. Parisdə düz Eyfel qülləsinin yanında palaz dükanı açmışıq ki, bütün Fransa ordan alver eləyir. Hətta fransızlarda məsəl yaranıbdır: “Palaza bürün, Eyfelnən sürün”. Luvr muzeyində ayrıca “Biləcəri” zalı yaratmışıq, Strasburq kafedral kilsəsi isə hər cümə axşamı Qafqaz Müsəlmanları İdarəsinin fitvasını oxuyur. Danimarkadan Serbiyaya, Portəgizdən Bəyaz Rusiyaya qədər hər bir Avropa dərəsində bizim nefti bakına tökən maşınlar şütüməkdədir.

Sözümün canı odur ki, biz Avropa ilə tərəfdaşlıqdan çox məmnunuq, avropalıların da məmnun olmasını o bir Allahdan arzu edirik, ilahi, amin. Yaz görüm sizdə havalar nə təhər keçir.




# Brüsseldə kritik danışıqlar: Bakı və Qarabağ üçün mühüm həftə

## Bu gün Avropa Birliyinin “Şərq tərəfdaşlığı” sammiti başlayır; Azərbaycan prezidentinin də dəvət aldığı toplantıdan əsas gözlənti; **politoloq:** “Təşkilatla bağlanacaq saziş Rusiyaya qarşı yönəlməyib...”

**Bu gün - mayın 13-də Brüsseldə Avropa Birliyinin (AB) 2009-cu ildə əsası qoyulmuş “Şərq tərəfdaşlığı” proqramına üzv ölkələrin yubiley sammiti başlayır. 2 gün çəkəcək toplantıya 6 ölkənin - Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Ukrayna və Belarusun rəhbərləri dəvətlidir. İlk yubiley sammitində Azərbaycan prezidenti İlham Əliyevin də iştirakı gözlənilir (Yazı hazırlanarkən səfərlə bağlı rəsmi açıqlama verilməmişdi).**

Azərbaycan üçün bu mötəbər tədbir, şübhəsiz, öncəliklə təşkilatla ölkəmiz arasında müzakirəsi yekunlaşmaq üzrə olan “Strateji tərəfdaşlıq haqda” sazişin taleyi ilə bağlı önəm kəsb edir. “Yeni Müsavat” xatırladır ki, bir neçə gün öncə Milli Məclis sədri Oqtay Əsədov sənədin imzalanmağa hazır olduğunu və mayın 13-də imzalanacağını bildirsə də, Azərbaycan Xarici İşlər Nazirliyi onu təkzib etmişdi. İstənilən halda, bu həftə sənədlə bağlı mühüm, hətta tarixi bir gəlişmənin şahidi ola bilərik.

*****

Rəsmi qaynaqlara əsasən qeyd edək ki, ermənilərin və onların havadarlarının ciddi cəhdlərinə rəğmən, imzalanması nəzərdə tutulan sənəd layihəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyinə dəstək yer alıb. Eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün erməni işğalçı qüvvələri tərəfindən pozulduğu aydın şəkildə əks edilib.

“Bu, çox mühüm məsələdir. Biz bunun üzərində uzun müddət işlədik və ölkəmizin ərazi bütövlüyü ilə bağlı maddənin sazişə daxil edilməsinə nail olduq. Bir qayda olaraq, dövlətlər belə sənədi Avropa Birliyindən kömək almaq üçün imzalayır. Ancaq bizim buna ehtiyacımız yoxdur. Bizim əsas hədəflərmiz Azərbaycan-Ermənistan konfliktinin nizamlanması və beynəlxalq iqtisadi-ticari əlaqələrimizin inkişafıdır”, - deyə Əsədov vurğulamışdı...

*****

Sammitdə Ermənistanın baş naziri Nikol Paşinyanın da iştirakı gözlənilir. Bu barədə mətbuata Paşinyanın özü deyib. Erməni KİV-nin məlumatına görə, o, Brüsseldə İlham Əliyevlə görüşünü mümkün sayıb. “İlham Əliyevlə rəsmi görüş nəzərdə tutulmayıb. Ancaq əgər üz-üzə gəlsək, aramızda söz mübadiləsini istisna eləmirəm”, - deyə erməni lider jurnalistlərə deyib.

Yada salaq ki, Əliyevlə Paşinyan arasında indiyədək 4 görüş keçirilib. Onlardan axırıncısı - mart ayındakı Vyana görüşü yeganə rəsmi görüş sayılır. Bu xüsusda çox əlamətdar olardı ki, Nikol Paşinyanın Brüssel səferi AB-nin Dağlıq Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyünə sadiqliyini təsdiqləyən sənədin imzalanma gününə təsadüf edəydi. Bu, işğalçı Ermənistanın ədalətli sülhdən yayınan və bir az da inqilab eyforiyasında olan hazırkı rəhbərliyinə yetərincə ayıldıcı bir mesaj olardı.

Yeri gəlmişkən, Azərbaycanla Ermənistan arasında atəşkəs haqda Bişkek protokolunun imzalanmasının dünən - mayın 12-də 25 ili tamam oldu. Bu 25 ilin ən böyük nəticəsi isə təəssüf ki, nəticəsizlik və artan müharibə riskidir. Səbəb də işğalçı Ermənistanın öz havadarlarına arxalanaraq, beynəlxalq hüquqa, onun əsas prinsipi olan ölkələrin ərazi bütövlüyü prinsipinə məhəl qoymamasıdır.

Şübhəsiz ki, bu gün başlayan Brüssel toplantısının yekun bəyannaməsində AB bir daha tərəfdaş dövlətlərin ərazi bütövlüyünü və suverenliyini öz dəstəyini ifadə edəcək. Daha bir səbəbə: separatçılıq artıq Avropa Birliyinin öz daxilində də (Fransa, İspaniya) ciddi problemə və təşkilat üçün təhdidə çevrilib...

*****

“Şərq tərəfdaşlığı” sammitinin Rusiyanın da diqqətində olacağı şəksizdir. Çünki söhbət Rusiya ilə həmsərhəd 6 postsovet ölkəsinin qurumla əməkdaşlığı getdikcə dərinləşdirməsindən gedir. Ancaq konkret olaraq Azərbaycana gəlincə, AB ilə imzalanacaq sənəd heç bir halda nə Rusiyanın, nə də digər hər hansı üçüncü ölkənin əleyhinə yönəlməyib, yönələ bilməz. Ən azı o səbəbə ki, sənəd rəsmi Bakının balanslı xarici siyasət kursuna uyğun hazırlanıb. Vurğulandığı kimi, Azərbaycanın əsas hədəfi isə Qarabağ probleminin həllində AB-nin daha sanballı dəstəyinə nail olmaq və beynəlxalq iqtisadi-ticari əlaqələri inkişaf etdirməkdir.

Azərbaycanın Rusiyadakı sabiq səfiri, politoloq Hikmət Hacızadə də hesab edir ki, AB ilə bağlanacaq saziş Rusiya əleyhinə deyil. “Yeni Müsavat”a açıqlamasında o deyib: “Açığı, sazişdə Rusiyaya qarşı ola biləcək bütün hissələr yığışdırılıb. Həmin hal Ermənistanla saziş bağlananda da olmuşdu. Ermənilər saziş üçün danışıqlar aparırdılar. Rusiyanın təpkisindən sonra Kremlə xoş gəlməyən bəndlər oradan yığışdırıldı. Bizim sazişdə də bunlar olmadığı üçün Rusiya o qədər də təzyiq etmir”.

Ancaq onu da qeyd eləməyə gərək var ki, Ermənistandan fərqli olaraq, Azərbaycan Rusiyanın dominantlıq elədiyi birliklərin - Avrasiya Birliyi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT - “Rus NATO-su”) üzvü deyil, tarazlı xarici siyasətə üstünlük verən ölkədir. Yəni Bakı İrəvan kimi Kremlə hansısa əlavə öhdəliklərlə bağlanmayıb. Bu mənada Azərbaycanın AB ilə tərəfdaşlıq sazişinin Ermənistanla imzalanan sənədlə müqayisədə daha məzmunlu və sanballı, daha işlək olacağını gözləməyə dəyər...

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019

# Atəşkəsin "yubiley"ində müharibə çağırışları

## Rey Kərimoğlu: "Ordumuzun hərəkətə keçməsinin vaxtı çatıb"

## Akif Nağı: "Azərbaycanın tam haqqı var ki, atəşkəs rejiminə xitam versin"

**Azərbaycanla Ermənistan arasında 1994-cü ildə Bişkekdə imzalanan atəşkəs razılaşmasından 25 il keçdi. Əsrin dördə biri arxada qalsa da, bu müddətdə Dağlıq Qarabağ münaqişəsi həll olunmadan qalıb. Artıq Azərbaycan cəmiyyətinin, demək olar, bütün kəsimlərində məsələnin sülh yolu ilə həllinə inam qalmadığı, atəşkəs rejiminin daha çox ermənilərin xeyrinə işlədiyi rəyi hakimdir.**



Siyasi təhlilçilər, keçmiş döyüşçülər isə açıq şəkildə bəyan edirlər ki, Azərbaycan təcili olaraq hərbi əməliyyatlara, partizan müharibəsinə başlamalıdır.

Politoloq Qabil Hüseynli "Hürriyyət"ə bildirib ki, ermənilər ruslarla bir gündə, yəni 9 mayda qələbə gününü qeyd etməsi və tədbirləri Şuşa şəhərinə salması ilə açıq surətdə Azərbaycana mesaj verirlər ki, bəli, müharibə olub, müharibədə qələbə çalmışıq, qələbənin nəticələrini də qeyd edirik: "Eyni zamanda, onu da nəzərə çatdırırlar ki, qan töküb torpaq almışıq, gücünüz çatarsa, siz bu torpaqları yalnız müharibə yolu ilə geriyə qaytarmalısınız. Bizim isə indi gücümüz, bu torpaqları geriyə qaytarmaq imkanımız ola-ola bunu həyata keçirə bilmirik. Bu gün hamımız, Azərbaycan əsgəri də, döyüş komandirləri də müharibəyə hazırıq. Amma açıq etiraf etmək lazım gəlir ki, Azərbaycan ordusunun hücumu qarşısında erməni əsgəri deyil, rusun bu ərazilərə səpələnmiş saysız-hesabsız bazaları və qüvvələri dayanır. Bu yaxınlarda ermənipərəst, rus Tarasov müsahibəsində bildirdi ki, əgər bölgədə müəyyən tarazlığa riayət edilməsə, rus tankları Araz çayına qədər gedib çata bilər. Bunu ilk dəfə Tarasov belə açıqlığı ilə deyir. Amma biz çox gözəl bilirik ki, bölgədə müharibənin baş verməsinə əsas maneə Rusiyadır. Bəzən hətta Rusiya çaşıb ermənilərə deyir ki, "o torpaqlar sizin torpaqlar deyil, bizim torpaqlardır, biz işğal etmişik və bizim də nəzarətimiz altındadır. Biz necə istəsək, o cür də həll olunacaq". Bu nöqteyi-nəzərdən vəziyyət çox ağırdır. Azərbaycan dövləti lokal müharibələr və partizan hərəkatı yolu ilə işğal edilmiş ərazilərimizin azad edilməsi üçün yavaş-yavaş irəliləyə bilər. Ermənistanla danışıqlar aparmağın mənası yoxdur. Ermənistanda təkcə siyasilər yox, hətta orta və aşağı səviyyəli insanlar da milliyyətçilik azarına tutulub və onlarla danışıq aparmağın heç bir mənası yoxdur. Sadəcə ermənilər güc görməlidirlər. Ermənilər görməlidirlər ki, onların qarşısında duran dövlət itirdiyi torpaqların itirilməsi ilə barışmayacaq. Bu yolda müxtəlif taktiki variantlara əl atmaq lazımdır. Uzun müddətdir ki, bir neçə şəxsin dilindən partizan müharibəsi kəlməsi səslənir. Həmin yerlərdən qaçqın düşmüş adamların içərisində çoxlu partizan müharibəsi həvəsində olan adamlar var və Azərbaycan dövləti özünün sıravi döyüş qüvvələrinin içərisində xüsusi təyinatlı qruplar da hazırlayıb, lokal müharibələr yolu ilə işğal edilmiş ərazilərimizin azad edilməsi üçün yavaş-yavaş irəliləyə bilər. Bu, sadəcə olaraq bir təklifdir".





Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı da təcili hərbi əməliyyatlara, həmçinin partizan hərəkatına başlamağın vaxtının çatdığını bildirdi. O, qeyd etdi ki, Azərbaycan 25 illik atəşkəs rejiminin bitdiyini elan etməlidir və torpaqlarının azad olunması üçün hərbi variantı seçməlidir: "Azərbaycanla Ermənistan arasında imzalanmış rüsvayçı atəşkəs sazişinin 25 illik "yubileyini" və bu sazişin hələ də qüvvədə qalmasını qəzəb və nifrət hissi ilə qeyd edirik. Həmin sazişin həmin dövrdə imzalanması bəlkə də müəyyən şərtlərdən irəli gəlirdi, lakin bu qədər vaxt ərzində qüvvədə saxlanılması yolverilməzdir və Azərbaycanın maraqlarına cavab vermir. Bu saziş 25 il ərzində Ermənistanın işğalçı və ilhaqçı niyyətlərinin həyata keçirilməsinə şərait yaradıb. Bu saziş beynəlxalq təşkilatların, bəzi dövlətlərin Azərbaycana qarşı yeritdikləri məkrli siyasətin göstəricisidir. Beynəlxalq təşkilatlar bu sazişin qorunub saxlanılması ilə işğalçı Ermənistanı himayə edir, status-kvonun dəyişdirilməsinə imkan vermirlər.

Atəşkəs rejiminə hələ də əməl edilməsi Qarabağın azadlığı işinə xidmət etmir. 25 il atəşkəs olmaz, bu, anormal haldır. Beynəlxalq təşkilatlar, birinci növbədə ATƏT Minsk qrupunun həmsədr ölkələri cavab verməli, aydınlıq gətirməlidirlər ki, nə üçün 25 il ərzində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına nail ola, Ermənistanı işğalçı hərəkətlərindən geri çəkindirə bilməyib və ya istəməyiblər. Azərbaycanın tam haqqı var ki, atəşkəs rejiminə xitam versin. Ona görə də Azərbaycan birtərəfli qaydada atəşkəs sazişindən çıxmalı və torpaqlarımızın azad olunması üçün azadlıq müharibəsinə başlamalıdır".

Qarabağ qazisi Rey Kərimoğlu da Azərbaycan Ordusunun hərəkətə gətirilməsinin vaxtının çatdığını bildirdi: "Azərbaycan ordusu Qarabağı işğaldan azad etmək gücündədir. Heç Rusiya da bizə mane ola bilməz. Amma təəssüf ki, bu məsələni uzadırıq. Hərbi əməliyyatlara başlamaqdan başqa yol yoxdur".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Paşinyan Qarabağdakı separatçı rejimi, separatçılar isə onu devirməyə hazırlaşır



## Ekspert: "Rusiya Qarabağ klanı ilə sıx işləyir və Köçəryanın həbsdən azad olunması üçün çalışır"

**Mayın 9-da, Şuşanın ələ keçirilməsi münasibətilə təşkil olunan bayram mərasiminin zamanı qondarma "dqr"in "təhlükəsizlik şurasının katibi", general Vitali Balasanyan Ermənistanın baş naziri Nikol Paşinyana istehza edib. Əvəzində Paşinyan onu hədələyib.**

Şuşada jurnalistlər Balasanyandan son günlər təmas xəttində atışmaların artması haqda soruşublar. Balasanyan isə belə cavab verib: "Gedin onu "lift danışıqlarının" aparıcısı Paşinyandan soruşun". Balasanyan bununla Paşinyanın ötən ilin payızında Qazaxıstan paytaxtındakı MDB sammiti zamanı Azərbaycan prezidenti İlham Əliyevlə baş tutmuş qeyri-formal görüşünə eyham vurub. Həmin sammit zamanı Əliyevlə Paşinyan təmas xəttində gərginliyin azaldılması, qarşılıqlı rabitə kanalının qurulması kimi məsələlərdə anlaşıblar. Söhbətin bir hissəsi də liftdə qalxarkən baş tutub.

"Qraparak" qəzetinin yazdığına görə, Ermənistan rəhbərliyi Balasanyanın bu ironiyasından qəzəblənib. Paşinyan qondarma "dqr" rəhbəri Bako Saakyana xəbərdarlıq edib ki, Vitali Balasanyana özünü yığışdırmalı olduğunu çatdırsın. Və deyib ki, əks halda gələn dəfə onunla başqa dildə danışacaqlar. Qeyd edək ki, V.Balasanyan Dağlıq Qarabağda "prezidentliyə" əsas iddiaçıdır.

Qəzet yazır ki, Paşinyan Qarabağdan yaxşı əhvalla qayıtmayıb. Onun Yerevana qayıdandan sonra Qarabağda "əksinqilab ocaqları" barədə Facebook-da status yazmasının səbəblərindən biri Balasanyanla bağlı məsələdir. Digər səbəbi isə budur ki, Şuşada bayram yemək-içmək mərasimi zamanı Dağlıq Qarabağ rəhbərləri Paşinyanla ünsiyyətdən qaçıblar. Dağlıq Qarabağın keçmiş "müdafiə naziri" Levon Mnatsakanyan isə ümumiyyətlə Paşinyandan yan qaçıb və oliqarx Ruben Ayrapetyanın müşayiət etdiyi Serj Sərkisyanı isti qarşılamağa üstünlük verib.

Paşinyan yazmışdı ki, ona bəzilərinin Qarabağı əksinqilab ocağına çevirmək istədiyi haqda xəbərlər çatır və belə cəhd olsa, o, Qarabağ inqilab ocağına çevirəcək.

Bu olay Dağlıq Qarabağdakı rejimlə Paşinyan arasında əslində bir gərginliyin olduğunun təzahürüdürmü? Paşinyanın Dağlıq Qarabağdakı rejimi dəyişməyə gücü yetərmi?

Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyan ilə işğal olunmuş ərazilərdə qondarma rejim nümayəndələri arasında konflikt yeni deyil: "Paşinyan Xankəndində qondarma rejimi dəyişmək və özünə sadiq qüvvələri burada yerləşdirməyi planlayır. Qarabağ klanın son qalasını ələ keçirmək istədiyini artıq dilə gətirir. Paşinyana qarşı daha da radikal mövqe ortaya qoyan "dqr" rejiminin "təhlükəsizlik şurasının katibi" adlanan Vitali Balasanyandır. O, Qarabağda Paşinyanın möhkəmlənməsini qəbul etmir. Qarabağ klanı Balasanyanı qabağa verməklə Paşinyana qarşı yeni cəbhə açırlar. Bundan əlavə, Qarabağ klanının Robert Köçəryanın həbsdən azad olunması üçün müraciət etməsi məhz onların toparlanmasına hesablanıb. Xankəndində Paşinyana qarşı əks-inqilab yaranır. Artıq Paşinyana Qarabağ klanı güc göstərməyə start verib. Ona görə də Paşinyan Qarabağdakı qondarma rejimi inqilabla hədələyir".

Politoloq hesab edir ki, Paşinyan hakimiyyətinin ilk aylarında Dağlıq Qarabağda inqilab etməyə daha yaxın idi, indi isə şansı əldən verib: "Çünki Paşinyanın sosial və iqtisadi islahatlar paketi bir il ərzində müsbət nəticə vermədiyi üçün artıq daxildə ona qarşı narazı kütlə formalaşır: "Məhz Qarabağ klanı prosesləri yaxından diqqətlə izlədiyi üçün aktivləşmək kursu götürərək Xankəndində savaşa keçir. Bu daxili ziddiyyətlər gün üzünə çıxmaqdadır və Paşinyan Xankəndindəki rejimi Köçəryan və Serj Sərkisyanla əməkdaşlıq etdiyi üçün hədəfə alıb, devirməyə cəhd edəcək. Lakin Paşinyanın Qarabağda inqilab etmək planı baş tutmaya bilər.

Ermənistanda inqilab populizmdən ibarət oldu və real siyasi-iqtisadi dirçəlişə gətirmədi. Rusiya Qarabağ klanı ilə sıx işləyir və Robert Köçəryanın həbsdən azad olunması üçün çalışır. Əgər Köçəryan həbsdən azad olunsa, Paşinyana qarşı yeni siyasi güc formalaşdıraraq onu devirməyə çalışacaq. Ona görə də Paşinyan Köçəryanı həbsdə saxlamağa davam etməklə separatçıları sıxacaq. Paşinyan üçün çıxış yolu Rusiya ilə əlaqələri zəifləmək, ABŞ-ın ona verdiyi mesaja uyğun olaraq Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdırmaq, işğala son qoymaqdır. Paşinyan Rusiya ilə yaxınlaşdığı üçün hazırda hakimiyyəti üçün təhlükə yaranır və Ermənistanda ağır sosial vəziyyət davam etməkdədir, müsbət irəliləyiş əldə edə bilmir. Bundan da istifadə edən Qarabağ klanı yenidən toparlanır. Paşinyanın Şuşaya gəlişi onun üçün xoş olmadı. Açıq şəkildə ona qarşı mənfi münasibəti gördü. Separatçı rejim Paşinyanı arzuolunmaz və siyasi düşmən hesab edir. Ona görə də qarşıda iki tərəf arasında hesablaşmalara şahidlik edə bilərik".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019



# Yumruq kimi...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Saytlara nəzər yetirəndə gözümə dəyən ilk xəbər bu oldu: "Qadınlardan ibarət boks üzrə milli komandanın üzvü Məryəm Cəbrayılova küçədə qadına hücum edib". Maraq güc gəldi, detalları da oxudum. Döyülən qadının iddiasına görə, boksçu həmcinsi ilə sonuncu yol hərəkətləri qaydalarını pozduğu üçün mübahisə ediblər.**

M.Cəbrayılova maşının pəncərəsindən əlini ona uzadıb, yumruq endirib, zərbələrlə hücum edib. Necə deyərlər, "sənətini dilə gətirib". İş polisdədir, araşdırma gedir və sair.

Bu iddiaya cavab nə olacaq, bilmirəm. Amma bircə onu bilirəm ki, heç kəs durduğu yerdə yalandan belə bir iddia ortaya atmaz. İkincisi də bu ölkədə çox adam öz sənəti ilə öz iş yerində məşğul olmaqda məhdudlaşmır. Cem Yılmaz demişkən, evdə komiklik edəndə də deyirlər ki, "evə iş gətirmə". Boksçu elə bilir, küçədə də rinqə çıxıb. Artist bəzən yolda da özünü ulduz kimi aparır, onu-bunu aşağılayır - örnəkləri var. Adına deputat deyilən şəxs isə insan hüquqları, azadlıqları anlayışını küçədə qarğıdalı satışına mane olmaqda görür. Digərlərinin burnuna qarğıdalı qoxusu gəlməsin deyə qanını qaşığa qoyur. Vəzifələr bölgüsü tar-mar, insanlar harda hansı rola girəcəkləri barədə çaş-baş qalıblar. Kim, harda, nə deməlidir, nə etməlidir, bəlli deyil.

Tez-tez müəllimləri tənqid edir, orta məktəbin səriştəsizliyindən şikayətlənirik. Amma bu günlərdə orta məktəblərdən yayılan bir video adamı dəhşətə gətirir. Sözümü "kim, harda nə etməlidir" sualına gətirirəm. Videodan görünür ki, bu dəfə müəllim yox, şagird ona əl qaldırır. Bakı Şəhər Təhsil İdarəsi iki şagirdin müəllimin qarşısında rəqs etməsi, müəllimə əl qaldırması ilə bağlı yayılan videoya münasibət bildirib. Məlum olub ki, videogörüntü 2017-2018-ci dərs ilinin aprel ayında, 314 nömrəli məktəbin 6-cı sinfində, rus dili müəllimi Qurbanov Pərviz Frik oğlunun dərsində çəkilib. Həmin vaxt müəllim ayağı sındığı üçün ayağa qalxa bilməyib. Açıqlamada bildirilir ki, təbiətən çox mülayim adam olan Pərviz müəllim baş verən hadisəyə görə öz ərizəsi əsasında işdən gedib. Videogörüntü isə həmin vaxt müəllim işdən azad ediləndən bir neçə gün sonra yayımlanıb.

Detalı oxuyub dəhşətə gəlirsən. Rollar o qədər qarışıb ki... Bilmirsən söhbəti siyasiləşdirib, adını nüfuz savaşı qoyasan, ya məktəblilərin qudurğanlığı, yoxsa müəllimin zəifliyi. Normalda belə bir hadisəyə görə bu əməli edən şagird(lər) məktəbdən qovulmalıdır, bir daha geri qaytarılmamaq üzrə. Bizdə isə müəllim xəcalət çəkib, ərizə ilə işdən çıxır. Harda qaldı ədalət? Tərəzinin bir gözünə daşı ilk kim qoydu? Videonu yayan tərbiyəsiz uşaq da bu cəzasızlıqdan güc almayıbmı? Hanı onun valideynləri? Məktəbdən, müəllimdən, bu videonu izləyənlərin hər birindən üzr istəməli olan valideynlər harda gizlənib? Maraqlansan, valideynlərin vatsap qrupunda ona-buna ağıl verənlərdəndir. Amma imkan tapıb, evindəki uşağına ağıl verə bilmir.

Ədalətsizlik demiş, o gün Səməd Seyidov da açıqlama verib ki, bəs mühacirlər Vətənə geri qayıda bilər, heç bir problem yoxdur. Mən şəxsən ad çəkməyəcəm, amma onların bir çoxunun bu ölkəyə qayıtmasını heç istəmirəm. İmkan varsa, elə internetdən qışqır-bağır salmaqda davam etsinlər, izləyən izləsin, izləməyən də yox. Amma burnumuzun dibində gəlib söyüş söyməsin, terror etməsin, redaksiyalara gəlib, jurnalistlərə ağıl verməsin, qarışıqlıq yaratmağa imkanı olmasın. Yəni bəzi mühacirlərin elə getməsi məsləhətdi, qayıdıb gəlməsindənsəE Əksi ədalətsizlik olar.

Rollar qarışanda düzən qarışır. Düzən qarışanda həyatlar, talelər, əsəblərE Bunların heç biri isə xeyir gətirmir. Hərə öz rolunu, vəzifəsini, öhdəliyini bilsin. Qalanı öz-özünə düzələr. Əks halda, söhbət boksçu qadının küçə rinqinə dönür...

# Məzarlıqlar bələdiyyələrə verilir: Bakının bahalı "qəbir evləri"ndən reportaj

## Dini komitə ilə nazirliyin yeni sənədində qəbir yerinin pulsuz ayrılması nəzərdə tutulub; əməkdaşımız şəhər qəbiristanlıqlarında torpağın qiymətlərini öyrənib

**Azərbaycanda qəbiristanlıqlarla bağlı məsələ uzun illərdir ki, müzakirə müstəvisindən kənara çıxmır. Söz var, əməl yox. Elə hey deyirlər ki, pulsuz məzar yerləri ayrılacaq, Bakıda qəbir yerləri satılmır, heç kəsdən pul istənilmir və s.**

Bunun həqiqət olmadığını biz də bilirik, məsul şəxslər də. Çünki ölüsünü dəfn etmiş hər kəs təsdiqləyər ki, paytaxt qəbiristanlıqlarında "əbədi mənzil" almaq üçün pul xərcləməlisən. Özü də hər qəbir evinin öz qiyməti var ki, bu da Bakının mərkəz və kənar massivlərinə görə dəyişir.

Bizi bu mövzunu araşdırmağa və məzarlıqlardan reportaj hazırlamağa sövq edən səbəb isə bu günlərdə qəbiristanlıqların bələdiyyələrin balansına keziriləcəyi xəbəri oldu. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun sözlərinə görə, qurum İqtisadiyyat Nazirliyi ilə birgə qəbiristanlıq və onların salınması ilə bağlı məsələlərin tənzimlənməsi üçün sənəd hazırlayıb. Sənəd Nazirlər Kabinetində artıq təsdiqlənib. Eyni zamanda, qəbiristanlıqların sənəddə nəzərdə tutulduğu kimi, bələdiyyələrin balansına keçməsi ilə bağlı müddət göstərilib.

Sədr müavininin dediyinə görə, cəmiyyəti ən çox narahat edən məsələ torpağın pulsuz ayrılmasıdır ki, bu da sənəddə əksini tapıb. Amma onun icra mexanizmi ilə bağlı hər hansı şərh verməyib. Yəni torpağın Bakı qeydiyyatında olanlara pulsuz ayrılması nəzərdə tutulub, yoxsa paytaxtda yaşayan hər kəsə şamil ediləcək. Ümumiyyətlə, məzarlıqların bələdiyyələrin balansına keçməsi nə dərəcədə müsbət nəticə verəcək, bunu demək çətindir. Torpaq satmaqdan başqa funksiyası olmayan və rüşvətə bulaşmış bələdiyyə sektorunun bu işi şəffaf şəkildə həyata keçirəcəyi şübhə doğurur.

Hələ bir müddət əvvəl bu qayda pozuntularından "yaralı" olanlardan biri Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirmişdi ki, Bakı şəhərində qəbir yerlərinin standart qiymətləri müəyyənləşdirilib və təklif olunan yeni layihəyə əsasən, paytaxt ərazisində qəbir yerlərinin qiyməti minimum əmək haqqının iki misli miqdarında olacaq. Bununla bağlı qanun layihəsi artıq hazırlanıb və icrası üçün ayrı-ayrı strukturlarla razılaşdırılma aparılır. O ki qaldı məzarlıqların qiymətlərinə, bununla bağlı "Yeni Müsavat" olaraq araşdırma aparmışıq.

### Prestijli qəbir evi: hər oğulun işi deyil...

Hazırda Bakının iki prestijli qəbiristanlığı var ki, hər oğulun işi deyil orada özünə və ya yaxınına qəbir yeri alsın. Bura II Fəxri Xiyaban və Yasamal qəbiristanlığıdır. Əslində onlar bir-birinə çox yaxındır, hətta bitişikdir deyə bilərik. Söhbət Badamdar qəbiristanlığından gedir. Bu məzarlıqlarda hələ ki, müəyyən qədər yenə boş torpaqlar var. Di gəl, qiymətləri aşağısı, 7-10 min manatdan başlayır. Ona görə də Badamdar, Yasamal kimi qəbiristanlıqlar sadə ölü üçün nəzərdə tutulmayıb.

Badamdar dairəsindən Şərifzadə küçəsinə qəbiristanlığın içərisi ilə gedən bu yolda sağ tərəfdə əsasən rus və yəhudi məzarları, sol tərəfdə isə azərbaycanlıların qəbirləri var. Qəbiristanlıqlarda ən aşağı qiymət Əhaliyə Vətəndaşlıq Xidməti Tresti tərəfindən müəyyən edilmiş dövlət rüsumlarından bir neçə dəfə bahadır. Buradakı mollalar sahibsiz qəbirlərin yerinin satılması halları olduğunu da dedilər. Qəbiristanlığın azərbaycanlılar uyuyan yerində isə sadə başdaşıları da vardı, təmtəraqlı olanları da.

Trest tərəfindən idarə olunan 32 qəbiristanlıqda uzunluğu 2,4 metr, eni 1,4 metr və dərinliyi 1,4 metr qəbirin yeri üçün 49 manat, qəbirin qazılması, mişar daşları ilə tikilməsi və dəfn olunma proseduru üçünsə materialların qiyməti istisna olmaqla, 63 manat müəyyən edilib. Əgər ölü tabutla dəfn olunursa, qiymət 79 manata qalxır. Amma hamı bilir ki, 63 manat rüsumla iş düzəlmir, bu söhbət blefdir.

### Hasarlı qəbir evinin öz qiyməti var

Öyrənirik ki, Xırdalan məzarlığı Yasamala nisbətən ucuzdur. Burada 2000-2500 manata qəbir yeri ala bilərsən, onu da tapsan. Çünki son illərdə sözügedən məzarlıq çox yüklənib, boş yer tapmaq müşkülə çevrilib. Xırdalanda bir nəfərlik məzar yeri almaq istəyən insana digər ölülərin qəbirlərinə bitişik, quru ot basmış yerlər təklif edilir. Xırdalan məzarlığında qiymət qəbrin yerləşdiyi məkandan, onun panoramasından, yola yaxınlığından asılı olaraq dəyişir.

Ramana, Biləcəri, Masazır kimi yerlərdə qəbir evləri ucuzdur, hardasa 700-1200 manat arası bu məsələni həll etmək olar. Məsələn, Hövsanda torpağa tapşırılmaq 800-1000 manatdan aşağı deyil. Binəqədi, Qaraçuxur kimi ərazilərdə hasarlı qəbir evləri 2500-3000 manat civarında dəyişir.

Məsələn, İstanbulda qəbir yerinin qiymətlərini bələdiyyələr müəyyən edir. Türkiyənin ən iri şəhərində qəbiristanlıqlar dörd kateqoriyaya ayrılır. Birinci kateqoriyaya şəhərin mərkəzində yerləşən Zincirlikuyu qəbiristanlığı daxildir. Orada qəbir yeri (2018-ci il göstəricisinə görə) 1900 manata başa gəlir. Alınmış qəbirin yanındakı boş yer isə artıq fərqli qiymətə - 4000 manata təklif olunur. İnsan ölməzdən əvvəl özünə qəbir yeri sifariş verirsə, bu, ona 8000 manata başa gəlir.

İkinci kateqoriyaya - Eyüp qəbiristanlığı aiddir. Orada qəbir yerinin qiyməti 353 manat, yaxınlıqdakı boş yerin qiyməti isə 1600 manat təşkil edir. Öncədən özlərinə qəbir sifariş verənlər 3200 manatından keçməli olur.

Üçüncü kateqoriyaya aid olan qəbiristanlıqlarda qiymətlər müvafiq olaraq, 32, 642 və 1300 manat təşkil edir.

Ən ucuz başa gələn qəbir yerləri dördüncü kateqoriyaya aid qəbiristanlıqlarda təklif olunur. Qiymətlər müvafiq olaraq 32, 321 və 642 arasında dəyişir.

Rəqəmlərə nəzər salsaq, görərik ki, 15 milyonluq əhalisi olan İstanbulun ən bahalı qəbiristanlığında belə qəbir yeri Bakıdakından dörd dəfə ucuzdur.

İstanbulda dünyasını dəyişmiş vətəndaşlar hətta ölkənin bütün ucqar əyalətlərinə də pulsuz aparılır. Bu xidmətdən yararlanmaq istəyən vətəndaşların yaxınları isə kasıb olduqlarına dair yerli bələdiyyədən "yaşıl kart" almalıdırlar.

Rusiya Federasiyasında isə 1996-cı ildə bu sahə ilə bağlı ayrıca qanun qəbul olunub. Qanunun müvafiq maddəsində dəfn yerləri və dəfn mərasiminin yerli idarəetmə orqanlarına tapşırılması öz əksini tapıb. Rusiya vətəndaşı üçün federasiya ərazisində məzar yerinin pulsuz ayrıldığı da qeyd olunur. Bu qanuna görə, tabut, cənazənin daşınması, dəfn mərasimi və bütün xidmətlərin haqqı, ölümün sənədləşməsi dövlət hesabına aparılır.









❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Bişkek protokolunun imzalanmasından 25 il ötdü

## Böyük sülh anlaşması hələ ki, üfüqdə belə görünmür: sülh əvəzinə müharibə qapını kəsdirib; problemi qəlizləşdirən faktorların başında isə Rusiya amili gəlir...

**Mayın 12-də Bişkekdə Azərbaycanla Ermənistan arasında atəşkəs haqda protokolun imzalanmasının 25 ili tamam oldu. Təəssüf ki, 25 illik atəşkəs böyük sülh anlaşmasının imzalanmasına gətirmədi. Səbəblər sırasında ən birinci Rusiya amilini göstərmək lazım gəlir. Çünki Rusiya bu müddətdə əlində unikal imkanlar ola-ola, münaqişənin həllinə nəinki töhfə vermədi, yaxud vermək istəmədi, üstəgəl, konfliktin dinc həllində hansısa real irəliləyiş şansı yaranan kimi nizamlama prosesini müxtəlif üsullarla pozdu. İkicə fakt.**




1998-ci ildə Azərbaycanla Ermənistan arasında Qarabağ probleminin mərhələli nizamlanması üçün əlverişli fürsət yetişmişdi. O vaxt Ermənistan prezidenti Levon Ter-Petrosyan Dağlıq Qarabağ ətrafında rayonların işğaldan azad edilməsi qarşılığında kommunikasiyaların və sərhədlərin açılmasına, bölgənin yekun statusunun isə sonraya saxlanması variantına razı idi. Lakin Moskvanın əli ilə İrəvanda reallaşan hakimiyyət dəyişikliyi, Ter-Petrosyanın hakimiyyətdən uzaqlaşdırılması bu prosesi pozdu. Ardınca iqtidara gələn Moskvaya birbaşa bağlı Köçəryan-Sərkisyan rejimi Qarabağ məsələsində Kremlin maraqlarına uyğun olaraq radikal və güzəştsiz mövqe tutdu.

Bununla belə, Köçəryan dönəmində də Qarabağda bir dəfə sülh şansı yaranıb. Ötən əsrin sonlarında ABŞ-ın patronajlıq elədiyi həmin prosesin başında Ermənistan tərəfdən ovaxtkı baş nazir Vazgen Sərkisyan dururdu. Hətta 1999-cu ilin dekabrında ATƏT-in İstanbul sammiti çərçivəsində Bakı ilə İrəvan arasında konkret anlaşma sənədinin imzalanması nəzərdə tutulurdu. Bunu duyan və bilən Köçəryan bu dəfə Moskvanın köməyi ilə terrora əl atdı: 1999-cu il oktyabrın 27-də Ermənistan parlamenti güllələbaran edildi. Ölənlər arasında Köçəryanın ən təhlükəli rəqibləri - Qarabağ prosesinin içində olan baş nazir Vazgen Sərkisyan və parlamentin spikeri Karen Dəmirçyan da var idi. Beləcə, həm Qarabağa sair sülh prosesi durduruldu, həm də Qarabağ klanı, Köçəryan ən ciddi rəqiblərindən qurtulmuş oldu.

O vaxtdan problemin dinc həlli istiqamətində hər hansı kardinal dəyişiklik qeydə alınmayıb. Çünki Moskva öz marionetləri - Robert Köçəryan və Serj Sərkisyanın əli ilə prosesi mütəmadi şəkildə tormozlayıb. Ona görə ki, konfliktin radikal həlli Kremlin bölgədə, Ermənistanda hərbi mövcudluğunun sıfırlanması demək olardı...

*****

Təəssüf ki, Moskvaya bağlı Qarabağ klanı artıq bir ildir hakimiyyətdə olmasa da, onu əvəzləyən Nikol Paşinyan hökuməti də fərqli, pozitiv kurs götürmədi, heç olmasa, Ter-Petrosyan yoluna qayıtmadı - Paşinyan vaxtilə Ter-Petrosyanın silahdaşı və kadrı ola-ola. Əksinə, Paşinyan öz davranışları ilə faktiki, sülh prosesini daha qəliz duruma saldı ki, bu da ən çox Rusiyanın maraqlarına işləyir. O Rusiya ki, konfliktin həllinə real dəstək vermək imkanı ola-ola, 25 ildir növbətçi bəyanatlar verməkdən uzağa getmir.

"Biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dayanıqlı sülhün əldə edilməsi istiqamətində tərəflərlə birlikdə işləməyə hazırıq. Bu yaxınlarda Azərbaycan və Ermənistan liderlərinin Vyanadakı, xarici işlər nazirlərinin isə Moskvadakı görüşlərinin nəticələri bunu təsdiqləyir".

Bu barədə Rusiya Xarici İşlər Nazirliyi İnformasiya və mətbuat idarəsinin Azərbaycanla Ermənistan arasında atəşkəs razılaşmasının imzalanmasının 25-ci ildönümü ilə əlaqədar yaydığı açıqlamada deyilir.

"Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi çox mürəkkəb prosesdir. Onun yüksəlişi və enişi var. Tənzimlənmənin əsas məqamlarını razılaşdırmaq üçün tərəflərdən vaxt və siyasi iradə tələb olunur. Biz kompromis axtarışı ilə bağlı Bakı və Yerevana fəal yardım etməyə səy göstərəcəyik. ATƏT-in Minsk Qrupu həmsədrliyi çərçivəsində ABŞ və Fransa ilə vasitəçiliyimizi əvvəlki kimi gücləndirəcəyik", - deyə Rusiya XİN-nin açıqlamasında vurğulanıb.

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) də atəşkəsin 25 illiyi ilə bağlı bəyanat yayıb. XİN Mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, bəyanatda deyilir: "12 may 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin əldə olunmasının 25 ili tamam olur. Münaqişə zonasında atəşkəsin elan edilməsi birmənalı şəkildə bütün hərbi fəaliyyətin dayandırılması, işğalçı qüvvələrin geri çəkilməsi, beynəlxalq sülhməramlı qüvvələrin yeridilməsi, kommunikasiyaların bərpası, məcburi köçkünlərin geri qayıtması və münaqişənin yekun həlli üçün danışıqların davam etdirilməsi kimi məqsədlərlə əlaqələndirilib. Bu, o deməkdir ki, atəşkəs yuxarıda qeyd edilən məqsədlər kontekstində kompleks yanaşmanı nəzərdə tutur. Yəni atəşkəsə riayət olunması təkcə atəşin dayandırılması deyil, həmçinin hərbi qüvvələrin münaqişə zonasından çıxarılmasını və işğal vəziyyətinin möhkəmləndirilməsinə xidmət edən fəaliyyətdən, o cümlədən məcburi köçkünlərin qayıdışına maneə olan hərəkətlərdən çəkinilməsini nəzərdə tutur.

Atəşkəsin əldə edilməsinə baxmayaraq, ötən 25 il ərzində Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində tarixən yaşayan azərbaycanlıların etnik təmizlənməsi ilə nəticələnən, beynəlxalq tanınmış ərazilərimizin beşdə birinin Ermənistan tərəfindən işğalı hələ də davam edir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərində qanunsuz mövcudluğunu davam etdirməkdədir. Dünya ictimaiyyətinin tələbləri, o cümlədən beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına cavabdeh olan BMT TŞ-nin qəbul etdiyi qətnamələr təcavüzkar Ermənistan tərəfindən rədd edilir. ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin başçılarının da dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan ərazilərinin işğalı nəticəsində yaradılmış status-kvo dayanıqlı deyil və qəbuledilməzdir.

Atəşkəs, həmçinin münaqişənin həlli üçün danışıqların sürətləndirilməsini nəzərdə tutur. Aydındır ki, atəşkəs münaqişənin həlli deyil, o münaqişənin həllinə aparan yolda müvafiq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün şərait yaradır. Lakin bütün bu illər ərzində Ermənistan münaqişənin həlli üzrə nəticəyə yönəlik substantiv danışıqların aparılmasından və beynəlxalq ictimaiyyətin işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması tələbindən davamlı imtina edir".

Bəyanatın sonunda bildirilir ki, İrəvan öz əhalisini və beynəlxalq ictimaiyyəti yanıltmaq cəhdlərindən əl çəkərək, təcavüz və etnik təmizləmə siyasətinə son qoymalı, öz beynəlxalq öhdəliklərinə əməl etməli və münaqişənin ən qısa zamanda həlli üzrə aparılan danışıqlar prosesində konstruktiv şəkildə iştirak etməlidir. "Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunması, etnik təmizləməyə məruz qalan azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının sülh şəraitində birgə yaşayışının təşviq olunması Ermənistanla Azərbaycan arasında normal qonşuluq münasibətlərinin bərpa olunmasının və bölgədə davamlı sülh, təhlükəsizlik və inkişafın təmin olunmasının əsasını təşkil edir", - deyə sənəddə qeyd olunur.

*****

Azərbaycanın mövqeyi aydın və ədalətli, sülhün şərti də sadə və əlçatandır. Hərçənd Rusiya XİN-in açıqlamasında Qarabağ nizamlanması mürəkkəb kimi göstərilir. Məsələ də ondadır ki, konflikti qəliz edən ilk növbədə Rusiya və onun qeyri-sağlam mövqeyi, konflikt hesabına regionda öz siyasi-hərbi mövcudluğunu gücləndirmək, münaqişəni süni surətdə uzadıb Azərbaycan və Ermənistanı zorla öz orbitində saxlamaq istəyidir.

Ancaq bu siyasət sonsuzadək sürə, atəşkəs daha 25 il uzana bilməz. Atəşkəs ya böyük sülhə, ya da böyük müharibəyə gətirməlidir. Böyük sülh hələ ki, üfüqdə görünmür. Demək, müharibə qaçılmaz olacaq. Müharibə isə əslində Rusiyanın maraqlarına cavab vermir. Səbəblər barədə zaman-zaman yazmışıq. Onlardan biri müharibə nəticəsində Rusiyanın Azərbaycan və Türkiyəni itirmək riski ilə bağlıdır. Demək, Rusiya həm də tələsməli, əlindəki Ermənistana unikal təzyiq rıçaqından sırf öz maraqları naminə istifadəyə son verməlidir. Verəcəkmi?

Sual hələ ki, açıq qalır. Ancaq Moskvada da, İrəvanda da yaxşı bilməlidirlər ki, 25 il öncə Bişkekdə imzalanan sənəd Azərbaycanın kapitulyasiya sənədi deyil, müharibənin bitməsi haqda anlaşma da deyil. Sadəcə, atəşkəs haqda razılaşmadır. Hansı ki, 25 ildə ədalətli sülhə gətirmədi. Bu səbəbdən indi qapını sülh yox, müharibə kəsdirib. Daha doğrusu, müharibənin ikinci hissəsi...

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019

# Rusiya İranı "balığın ağzına" ata bilər - gizli sövdələşmə ehtimalı

**Hazırda ABŞ və İran arasında yaşanan qarşıdurma gündəmin əsas müzakirə mövzularından biridir. Burada əsas diqqətlərin cəmləndiyi ölkə Rusiyadır. Şimal qonşumuzu hər kəs İranın yaxın müttəfiqi olan ölkələrdən biri kimi sayır. Amma buna baxmayaraq, Kreml bu qarşıdurma ilə bağlı seyrçi mövqe sərgiləməkdədir ki, bu da çoxsaylı suallar yaradır.**

## Əhəd Məmmədli: "Moskva hər an Vaşinqtonla anlaşa bilər"

Bu gərginliyin rəsmi Moskvanın xeyrinə olduğunu düşünənlər də, bunun əksini dilə gətirənlər də var. Rusiyanın regionun əsas dövlətlərindən biri kimi, cənub qonşumuzun sıradan çıxarılmasından dividendlər əldə etmək niyyətində olduğu ehtimal edilir. Hətta bunun üçün rəsmi Moskvanın hazırda burun-buruna dayandığı Amerika ilə gizli sövdələşməyə gedə biləcəyi belə vurğulanır.

Politoloq Əhəd Məmmədli hesab edir ki, digər dövlətlərin bir-biriləri ilə qarşıdurması Rusiyanın xeyrinədir: "Bu ölkə mövcud durumu xeyrinə çevirməyə çalışacaq. Bu da təbiidir. Rusiya keçmiş zamanlardakı kimi anti-Amerika koalisiyaya başçılıq etməyə çalışır. Bütün ABŞ-dan narazı ölkələri Rusiya öz ətrafına yığmaq istəyir. Kreml daxil və xaricə göstərmək istəyir ki, SSRİ vaxtlarına qayıdır, həmin zamanlarda olduğu kimi qüdrətlidir və anti-amerikan koalisiyasının başında dura bilər. Lakin Rusiya ilə birlikdə ABŞ-a qarşı çıxmaq İranın xeyrinədir ya yox, bu, artıq başqa məsələdir. Əvvəla onu deyim ki, İran 40 ilə yaxındır ki, sanksiyalar altında yaşayır. Bu çətin müddətdə qüdrətli dövlətə çevrilməyə müvəffəq olub. İqtisadiyyatı var. Nəinki özünü, hətta qonşu ölkələri, əsasən də, kənd təsərrüfatı, ərzaq məhsulları ilə təmin edir. Güclü ordusu var. Silah təchiz edir. Bütün bunları o, on illərdir iqtisadi sanksiyalar altında edir. Yəni dediyim odur ki, İran xalqı bu cür duruma öyrəşib və bu vəziyyət altında nəinki yaşamağa, inkişaf etməyi bacarıb. Növbəti sanksiyalar dalğasının da İrana ciddi təsir edəcəyi düşüncəsindən uzağam. Ümumiyyətlə, bir şeyi anlamaq lazımdır ki, İran, Rusiya, Türkiyə kimi dövlətçilik tarixi olan ölkələri iqtisadi sanksiyalarla zəiflətmək olar, amma yıxmaq olmaz. O ki qaldı Rusiya ilə müttəfiqliyə, bu dostluq indiki şəraitdə İrana lazımdır. Təkcə Rusiya ilə deyil, Türkiyə və Çinlə də ittifaqda olmaq İran üçün vacibdir. Lakin konkret anti-ABŞ koalisiyasına Rusiyanın rəhbərliyi altında girməyi İrana məsləhət görməzdim. Rusiyanın öz maraqları var, öz oyunlarını oynayır. Moskva hər an Vaşinqtonla anlaşa bilər. Məhəmməd xan Qacarın deyimi ilə desək, "şimal tülküsünə güvənmək olmaz". Fikrimcə, Tehran paralel olaraq Vaşinqtonla anlaşmağa da cəhd etməlidir. Zənnimcə, gizli dairələrdə bu cəhdlər edilir. Bunu da düz hesab edirəm. Reallıq var, həmçinin unutmayaq ki, siyasət ilk öncə uzlaşmağı bacarmaq, bilmək peşəsidir. Situasiyanı xilas etmək üçün güzəştə də getmək olar. Unutmayaq ki, vaxtı ilə Miloşeviç, Səddam da Moskvaya güvəndilər, sonları nə oldu bəllidir. Moskva ilə müəyyən yol getmək olar, lakin tam olaraq bu yolu qət etmək olmaz. Yəqin ki, bunu Tehranda, Ankarada nəzərə alırlar. Anti-ABŞ koalisiyasına gəldikdə isə, hal-hazırda bunun başında Çin durur. Rusiya da Çinin yanındadır. Kreml buna varmadan Çinə xoş gəlmək üçün nəhəng Şərq əjdahasına həm siyasi, həm də iqtisadi baxımından mövqelərini durmadan verir. Bu proses SSRİ dağılandan sonra başlayıb".



Politoloq israrla Moskvaya sonadək güvənməyin səhv addım olduğunu təkrarladı: "Bir anda təsəvvür edək ABŞ İranı vurmaq qərarına gəldi, Rusiya İrana görə Amerika ilə savaşa girəcək? Təbii ki, xeyr. İran Serbiyadan Rusiyaya yaxın deyil ki. Rəsmi Tehran Türkiyə ilə birlikdə olsa, heç kəs bu iki müsəlman ölkəsini bitirə bilməz. İslam dünyasına vəhdət lazımdır. Vəhdət olandan sonra ABŞ, Çin, Rusiya, Avropa Birliyi, ümumiyyətlə, hər kəsin öhdəsindən birlikdə gəlinər. Regionun əsas ölkəsinə çevrilmək uğrunda İran Türkiyə ilə rəqabətdə olmağa məcbur olacaq. Bu vəziyyət də həm Türkiyə, həm də İranı zəiflədəcək. Əsrlərdir xristian dünyası Türkiyə ilə İranı bir-birinə vurdurmaqla hər ikisini zəiflədib. Buna bir daha imkan vermək olmaz. Ankara ilə Tehran həqiqi müttəfiqə çevrilib, bir-birləri ilə hər ikisinə ziyanverici rəqabət aparmaq əvəzinə birləşib, həm region, həm də dünyaya yön verə bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Erməni baş nazirin xalqa bir illik "hesabatı"

## Politoloq: "Paşinyan 1 ildə görə bilmədiyi işlərin uğursuz hesabatını yallı getmək və velosiped sürməklə təqdim etdi..."

**Ermənistanın baş naziri Nikol Paşinyan ötən həftə Şuşada yallı oynadı. Sonra da İrəvanda velosiped sürdü. Baş nazirin bu davranışları diqqəti cəlb etməklə yanaşı müzakirələrə, suallara yol açıb. Nikol Paşinyan bu jestləri ilə hansı mesajları vermək, nə demək istəyir? Erməni baş nazir özünün sadə və avropalı siyasətçi imicini yaratmaq istəyir, yoxsa bir il ərzində xalqa verdiyi vədləri yerinə yetirmədiyini indi də bu cür jestlərlə pərdələmək, insanlarda özü haqda dəyişən rəyin qarşısını almağa çalışır?**

Politoloq Nəzakət Məmmədova "Yeni Müsavat"a bildirdi ki, Paşinyanın etdikləri siyasi texnoloqların, piar menecerlərinin konsaltinq fəaliyyətinin nəticəsidir: "Qərbdə publikaya hesablanmış bu cür addımlar siyasətçinin ictimaiyyət arasında reytinqinin, onun nüfuzunun artmasına yönəlmiş tədbirlər silsiləsindən səmərəli vasitə hesab olunur və bunu nəinki Qərb, hətta bir sıra postsovet ölkə liderləri edirlər. Biz hətta Rusiya prezidenti Putini hər nə qədər avtoritarizmdə ittiham etsələr belə, onun da vaxtaşırı bu cür üsullardan istifadə etdiyini müşahidə edirik. Aydındır ki, Paşinyan bu vasitələrlə modern, qərbyönümlü lider imici yaratmağa çalışır. Bu, ermənilərin heç zaman qarşılaşmadığı bir siyasətçi obrazıdır. Qarabağda vuruşduğunu hər zaman ön planda saxlayan, döyüşçü, "qəhrəman" cildinə girmiş, xislətcə isə korrupsioner, yarımhərbi diktatura yaratmış, daima zirehli maşınlarda, çoxsaylı zəhmli mühafizəçilərin müşayiət etdiyi Robert Köçəryan və Serj Sərkisyandan fərqlənmək, daha yaxşı olduğunu göstərmək üçün ən asan yol İrəvanda velosiped sürmək, Qarabağda quldurluq edib əlinə silah almış "Qarabağ klanı" başçılarından heç də az vətənpərvər olmadığını göstərmək üçün asan yol Şuşada yallı getməkdir".



Politoloq həmçinin qeyd etdi ki, Paşinyan ondan dünyanın 8-ci möcüzəsini gözləyən Ermənistan əhalisi və diaspora qarşısında bir illik hakimiyyəti dövründəki hesabatı bu cür ucuz piar kampaniyası ilə verdi: "Onun Şuşada yallı getdiyi gün ötən il mayın 8-də inqilab, yaxud çevriliş kimi qiymətləndirilən hadisələr nəticəsində parlamentdə baş nazir seçilməsinin düz bir illiyinə təsadüf edirdi və Paşinyan 12 ayda gördüyü, yaxud görə bilmədiyi işlərin uğursuz hesabatını bu cür təqdim etdi. Mübaliğəsiz demək olar ki, Ermənistan təzadlar ölkəsi, Paşinyan isə çoxüzlü piramidanı xatırladır. Məsələn, o, BMT, Avropa Şurası kürsüsündə demokrat, qərbyönümlü lider təəssüratı yaratmağa çalışır, Ermənistanda həyata keçirdiyi sərt metodlarla mahiyyətcə özünün avtoritar təbiətini sübut edir, Azərbaycanda, Şuşada isə görüntüdə saxta vətənpərvər, mahiyyətcə işğalçı təfəkkürlü siyasətçidən uzaq olmadığını isbat edir. O, milliyyətcə bir ermənidir, erməni xalqının hazırkı lideridir və öz davranışları ilə sübut edir ki, bir erməni Qərb tərəfindən hakimiyyətə gətirilsə belə, modern təfəkkürlü şəxs obrazı yaratmağa çalışsa belə, ya xislət etibarilə şovinizmdən uzağa gedə bilməz, yaxud ictimai sifariş, rəhbərlik etdiyi xalqın gözləntiləri ona əsl demokrat olmağa, başqa cür davranmağa imkan verməyəcək. Paşinyan da istisna ola bilmədi, əks halda onu dünən hakimiyyətə gətirən kütlə bu gün daşqalaq edər. Bu təzadlar Ermənistana rəhbərlik edən istənilən şəxsi münaqişəyə hüquq, sivilizasiyalı yanaşma prizmasından yox, şovinist təfəkkürdən çıxış etməyə, yaxud bunu sübut edən davranış sərgiləməyə təhrik edir. Lakin bu məsələdə bütün sivilizasiyalı dünya, ilk növbədə Minsk Qrupu məsuliyyət daşıyır. Təsəvvür edək ki, Azərbaycan suveren dövlət kimi öz hüququndan istifadə edir və Paşinyanın vertolyotuna atəş açılır. Biz həmin vaxt yaranacaq beynəlxalq qalmaqalı təsəvvür edə bilərik. Amma öz ucuz piar kampaniyası, hakimiyyətinin ömrünü uzatmaq üçün suveren dövlətin sərhədini pozan işğalçı dövlətin liderinin hərəkətlərinə göz yummaq olmaz".

N.Məmmədova hesab edir ki, Azərbaycan bu fürsətdən istifadə edib heç olmasa bundan sonra Paşinyanın Azərbaycan ərazisinə daxil olan vertolyotuna xəbərdarlıq atəşi açmalıdır: "Doğrudur, biz hamımız bilirik ki, Paşinyan ortada sadəcə, kiçik bir fiqurdur və bu güllə tək ona yox, onun havadarlarına atılmış güllə deməkdir. Ancaq o atəş həm də münaqişənin ədalətli həllini istəməyən, haqsız düzəni istəyən, ona şərait yaradan qüvvələrə, hazırkı nizama, diplomatik dildə desək status-kvoya etiraz olardı. Bir güllə belə dünya tarixində çağ qapayıb, çağ açıb. Odur ki, Azərbaycan dövlətinin qanunlarını və beynəlxalq hüququn prinsiplərini saymayan, xalqımıza aşkar hörmətsizlik, saymamazlıq edən, onun heysiyatına toxunan bu cür piarların qarşısı alınmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102(7272) 13 may 2019

# "Yuxuda da radio, mikrofon görürdük..."

## Məşhur diktor Eldost Bayram: "Torpaq məni o qədər cəlb etdi, kövrəltdi ki, sürücüdən xahiş etdim maşını saxlasın, asfaltı öpüm..."

**"Yeni Müsavat"ın budəfəki qonağı ömrünün 47 ilini Azərbaycan Dövlət Teleradiosuna həsr edən, məşhur diktor, Xalq artisti Eldost Bayramdır. Uzun illərdir ki, səsi, avazı ilə dinləyicilərinin qəlbini fəth edən Xalq artisti ilə jurnalistlərin binasında ona bağışlanan evində görüşüb, söhbətləşdik. Öncə o, durumu haqda sualımızı cavablandırdı:**

- Allaha şükür, indi yaxşıyam. Bildiyiniz kimi, bir müddət bundan əvvəl rəhbərlik dəyişdi, təbii ki, rəhbərliyin dəyişməsi müəyyən dərəcədə ətraflara, bilavasitə məzmuna, oradakı işçilərə də təsir edir. Arif Alişanovun vaxtında mən ancaq yaxşı şeylər gördüm. Belə ki, 2006-cı ildən başlayaraq sanki mənim sədrim gəldi, illərlə əziyyət çəkdiyim zəhmətin, nəhayət ki, bəhrəsini görməyə başladım. Həmin ildə Əməkdar artist, 2008-ci ildə "Tərəqqi" medalına, sonra isə Xalq artisti adına layiq görüldüm. 2017-ci ildə isə gördüyünüz bu iki otaqlı ev mənə hədiyyə edildi. Ona qədər heç vaxt evsiz olmamışam, amma öz evim yox idi. Hardasa bununla bağlı içimdə bir qırıqlıq var idi. Kişinin öz evi olar da (gülümsəyir). Nəhayət, ömrümün ən böyük hədiyyəsini aldım, evlə təmin olundum. Bu hamısı əməyimə verilən qiymətdir. Buna görə çox xoşbəxtəm, həm dövlətimizin, həm də kollektivimizin rəhbərliyinə minnətdaram.

Arif Alışanovdan sonra AzTV-yə Rövşən Məmmədli sədr gəlib. Onu ilk olaraq efirdə görmüşdüm, həmin vaxt onun savadına, intellektinə, veriliş aparmasına bələd idim və çox xoşuma gəlirdi. Çünki səlist Azərbaycan dilinə, gözəl dinamik, gəncliyə xas bir xüsusiyyətə malikdir. Vaxtaşırı qarşılaşanda həmişə mənimlə salamlaşıb, hal-əhval tuturdu. Hətta təəccüblənirdim ki, axı bir-birimizi tanımırıq. Amma sonra aydınlaşdı ki, o mənim zəhmətimə, sənətimə böyük dəyər verir.

***- Hazırda da dövlət radiosunda fəaliyyətinizə davam edirsinizmi?***

- 2009-cu ildə yaşımla əlaqədar təqaüdə çıxmışam, ondan sonra xəbərləri oxumur, birbaşa efirə çıxmıram. Amma yenə də, rəhbərliyin istəyi ilə mikrofon qarşısındayam. Sadəcə, xalq yaradıcılığı redaksiyasında verilişləri, hərdən şeir və hekayə oxuyuram. Beləliklə, həm dövlət radiosunda, həm də televiziyasında xarakterimə uyğun olan bədii və ictimai-siyasi verilişlərdə fəaliyyətimi davam etdirirəm.

Bu yaxınlarda böyük iclas keçirildi, köhnə diktorlar da bu iclasa cəlb edildi, o cümlədən mən də həmin iclasda iştirak etdim, radio ilə bağlı danışdım.

İllər sonra zəhmətin qiymətləndiriləndə deyirsən ki, bu dünyada boş-boşuna yaşamamışam. Deməli, kimlərinsə könlünü xoş edə bilmisənsə, sən lazımlı adamsan. Sən deme 47 illik fəaliyyətin boş yerə deyilmiş. Bu da məni ruhən göylərə qaldırdı, həvəsim birə on, son dərəcə artdı.

Təkcə mənim deyil, digər radioçular, məndən 5 yaş böyük və 5 il əvvəl radioya gəlmiş Əli Məhəmmədoğlu, səsi hələ də öz incəliyində qalan Sevda Saleh, İradə Ələkbərqızı, Sevil Hüseynlinin də əmək və bacarığından istifadə olunur. Beləliklə, təqaüddə olub, dəyər verilən, fəaliyyətlərini davam edən 5 radio diktoruyuq.





***- AzTV-də uzun illər dəyişməyən, eyni formatda, eyni çərçivədə verilişlər görürdük. Lakin son bir ildə müxtəlif yenilikləri müşahidə edirik. Maraqlıdır, siz özünüz bu yenilikləri necə qarşılayırsız?***

- O yenilikləri mən də gördüm. Təxminən 20 il bundan əvvəl Şəkidə 70 yaşlı qadın mənə dedi ki, bu yaşıma qədər nə savad, dünya görüşü, informasiya əldə etmişəmsə, bunun hamısına görə Azərbaycan radiosuna borcluyam. Azərbaycan radiosu məktəbdir. Onun bünövrəsinin qoyulması hələ Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin vaxtına təsadüf edir və beləliklə, silsiləylə dahiliyə yaxın olan insanlar burada çalışıblar. O ənənə, məktəb davam edir. Lakin anlaya bilmirəm, niyə Azərbaycan radiosunu, televiziyasını bəyənmirdilər. Mən televiziyaya toxunmuram, ancaq radio barəsində danışacam. Məlum iclasda da qeyd etdim ki, bizdə yeganə çatışmayan cəhət aparıcılarımızın xəbəri dinləyiciyə bir qədər ləng təqdim etməsi ola bilərdi. Şəxsən mən 72 yaşımda hər an operativ olmağa hazıram. Məsələn, dedilər ki, pafos olmaz, dərhal aradan qaldırdım. Hərçənd ki, vaxtı ilə pafosun öz yeri var idi, biz gələcəyə inanırdıq, pafos elə oradan yaranmışdı. İndi isə həqiqi pafosdur, yəni hər şey göz önündədir, pafosa ehtiyac yoxdur. Və yaxud indi xalq dilinə daha çox uyğunlaşmaq lazımdır, bu daha məqsədə uyğundur. Mən də sadə xalq dilində danışmağa çalışıram və təvazökarlıqdan uzaq olsa da, düşünürəm ki, mənim qədər sadə xalq dilində danışan yoxdur.

Beləliklə radioda verilişlərin məzmunu bir qədər dəyişir, dinamiklik çoxalır.

Uzun illərdir ki, Roza xanım ilə birgə dinləyicilərin çox böyük rəğbətlə qarşıladığı, sonradan bərpa edilmiş "Arzu musiqi poçtu" verilişini aparırıq. İndi verilişdə belə bir yenilik etmişik, veriliş zamanı dinləyicilər ilə əlaqə yaradırıq. Və yaxud səhər proqramının məzmunu bir qədər dəyişdirilib, daha dinamikdir, xarici estrada musiqilərindən istifadə olunur. Daha bir yenilik, televiziyanın səhər proqramı ara-sıra radiodakı səhər verilişinə qoşulur. Bu, əvvəllər yox idi. Beləliklə, hansı yeniliklər varsa, bu Azərbaycanın manefiyinə xidmət edir.

***- Gənc radio aparıcılarında nələri bəyənir, nələri bəyənmirsiz?***

- Əgər gənc radio aparıcısı səlis Azərbaycan dilində danışırsa, kəkələmirsə, dinamikdirsə, materialı dinləyiciyə çatdıra bilirsə, deməli onda hər şey gözəldir...

***- Bəzən dilimizə daxil olan, onu korlayan bəzi əcnəbi, əcaib sözlərin səbəbkarı kimi yerli televiziya və radiolarımız göstərilir. Bununla razısızmı?***

- Düz deyirlər və düzgün də günahlandırırlar. Çünki radio efiri, televiziya ekranı xalqın, dövlətin güzgüsüdür. Xaricə çıxanda Azərbaycan dilinə televiziya və radiolara görə qiymət verirlər. Diktor, aparıcı verilişləri necə təqdim edirlərsə, o cür də qəbul olunur. Mən işə qəbul olunduğum vaxtda Soltan Nəcəfov, Aydın Qaradağlı, Ramiz Mustafayev, Sabutay Quliyev, Yusif Muxtarov, Sabir Ələsgərov, Ofeliya Sənani, Fatma Cabbarova, Züleyxa Hacıyeva, Sevda Saleh, Südabə Manaflı elə bir məktəb idi ki, dilçilik institutunu əvəz edirdi və mən bu sözün arxasında dayanıram. Çünki hansısa sözün düzgünlüyünü təyin edəndə dilçilik institutuna getmirdilər, deyirdilər ki, "Radionu açın, görün diktorlar o sözü necə tələffüz edirsə, deməli o cürdür". Amma indi?

***- Bəs indi?***

- İndi bunu deyə bilmərik. Lakin Azərbaycan radio və televiziyası bu mənada öz yerində qalır, yalnız zəmanənin müəyyən təsirləri var. Amma biz varıq. Bəs sədr bizi niyə toplantıya yığmışdı? Məhz bunun üçün yığmışdı ki, o ənənələr üzərində möhkəm dayanan Azərbaycan radio və televiziyası müasirləşdirilsin, tanınmış köhnə diktorların təcrübəsindən istifadə olunsun. Məqsəd bu idi və deyim ki, Rövşən müəllim bunu vaxtında etdi, yoxsa vəziyyət getdikcə mürəkkəbləşirdi.

Hazırda özəl televiziyalarda da çox gözəl aparıcılar yetişib, onlara baxanda adam valeh olur. Aparıcıların efirdə özlərini aparması, efir mədəniyyəti, gözəl səslə verilişləri təqdim etməsi təbii ki, çox xoşdur. Lakin bunlarla yanaşı zay aparıcılar da var. Tez-tez şahidi oluruq ki, bəziləri Azərbaycan dilini rus, türk dilinə qatır. Məsələn, "Zamanım yoxdur" kəlməsindən istifadə olunur. "Zamanım yoxdur" və "vaxtım yoxdur" sözlərinin ikisi də türk sözüdür, biri Anadolu türkçəsi, digəri azərbaycanlı türkçəsinə xasdır. Zaman sözü Türkiyədə başqa, mənim dilimdə başqa cür məna daşıyır, ay aparıcılar. Bu mənada çox yanlışlıqlar var ki, aparıcılar bunu düzəltməlidir. Və yaxud görürük ki, əksər hallarda hava haqqında proqnozu bildirəndə "hidrometrologiya departamenti" deyirlər, halbuki, "hidrometeorologiya departamenti" olmalıdır. Bunun asan yolu "meteor" sözünü yadda saxlamaqdır. 90 faiz aparıcılar "lahiyə" deyir. Amma "lahiyə" deyil, "layihə"dir. Bəlkə də kənardan aparıcı, diktor yetişdirmək asan görünür, amma bunun üçün bəzən illər sərf olunur.

Şəxsən bizlər heç vaxt maaşı düşünmürdük, demirdik ki, maaş niyə azdır? Biz peşəmizin xəstəsi, fədaisi idik. Gecə yatanda da, yuxuda radio, mikrofon görürdük. Məni xoşbəxt edən dinləyicilərimdir.

***- Tez-tez tamaşaçıların dilindən eşidirik ki, yerli televiziya kanallarına baxmırlar. Bəs sizlər necə?***

- Ümumiyyətlə yerli və yaxud xarici fərqi yoxdur, televiziya kanallarına çox az baxıram. Əsasən radionu dinləyirəm. O da radioya sevmədiyim, əcnəbi musiqilər gələndən daha dinləyə bilmirəm. Bizim musiqi xəzinəmizdə o qədər gözəl, illərlə səslənən milli musiqilərimiz var idi, amma indi dinləyicilər var ki, ona həsrət qalıb. Əvvəllər mahnının müəllifləri, bəstəkarı, şairi, hətta yazıldığı il deyilirdi, indi isə belə deyil. Lakin dövlət radiomuzda bu ənənə davam edir.

***- Bəzən deyirlər ki, indi internet əsridir, daha radioya qulaq asan da qalmayıb...***

- İnternet nə qədər inkişaf etsə də, radio heç vaxt əksik olmayacaq, əksinə, hər dövrdə yaşayacaq.

***- Dinləyicilərin illərlə sevə-sevə dinlədiyi, səsinə, avazına heyran olduğu Eldost Bayramın özü bu gün kimisə belə dinləyir, səsinə heyran olurmu?***

- (bir qədər fikrə gedir)... Çox çətin sualdır, bu barədə heç düşünməmişdim... Hazırda yox. Bizi işə götürəndə ilk növbədə səsimizə, avazımıza diqqət edirdilər. Bəxtim onda gətirmişdi ki, səsim mikrofona düşürdü. Bizim nəsil aparıcıların hər birinin özünə məxsus gözəl səsi var idi. Bir Səttar həkim var, o rus, ana dilimizdə o qədər peşəkar siyasi analitik yazılar yazır ki, insan heyran qalır. Mənə mesaj yazanda elə gözəl sözlərdən istifadə edir ki, utanıram ona cavab yazmağa, zəng edib təşəkkür edirəm. Deyirəm ki, sizin kimi yaza bilmirəm. Səttar həkim isə mənə deyir ki, mən 6 il həkimliyi oxumuşam, nə qədər kurslarda olmuşam, rəsmi surətdə həkiməm, amma əsl həkim mən deyil, sizsiniz. Bu, mənim üçün böyük xoşbəxtlikdir ki, qəlbi sarı sim olan Azərbaycanın sarı simlərinə toxuna bilirəm.

***- Çox sevindirici haldır ki, özünüzün də qeyd etdiyiniz kimi, illərinizi, ömrünüzü bu peşəyə həsr etməyinizin sonda dəyərini, qiymətini almısız. Bəs bu gün özünüzə nə arzulayırsınız?***

- İlk növbədə azərbaycanlı olmağımla fəxr edirəm. Sanki Azərbaycan torpağında nəsə var. Məncə, yeganə xalqıq ki, sərhədi keçib, xaricə gedəndən 15 gün sonra deyirik ki, Azərbaycanıma qurban olum, hər şeyə razıyam, təki geri dönüm. Kürdəmirin o palçıqlı torpağı var ha, deyirəm ona qurban olum. Gənc vaxtı bəyənmirdim, öz-özümə deyirdim, bu nədir e, palçığı dizə qalxır, yayı da istidir, qaç canını qurtar burdan. Amma müəyyən yaşdan sonra o torpaq insanı özünə çəkir. Uzun illər idi ki, Kürdəmirə getmirdim. Bu yaxınlarda maşınla getdim. Yolda ikən o torpaq məni o qədər cəlb etdi, kövrəltdi, muma döndərdi ki, sürücüdən xahiş etdim maşını saxlasın, o asfaltı öpüm... Yeganə xalqıq ki, xüsusən də kənd yerində ev tikəndə onun bir otağını qonaq üçün tikir, ən yaxşı xalçasını, yorğan-döşəyini o otağa, qonaq üçün qoyur. Bunun hansı xalq edir? Əlbəttə ki, azərbaycanlılar. Azərbaycan bütün çatışmayan cəhətləri ilə birgə son dərəcə gözəl xalqdır. Amma Azərbaycanın öz dərdi var. Bu günlərdə əlimizdən getməyinin 27 ilini qeyd etdiyimiz Şuşamız, onunla bərabər dilbər torpaqlarımız var. Əslində ən dilbər guşələrimiz elə onlardır. Azərbaycanın isveçrəsi, yaraşığı idi o torpaqlar. Hamımızın dərdi budur. İllər keçir, o dərd də bizimlə gedir. Hər birimizin arzusu budur ki, tanrı o dərdi bizim başımızın üstündən götürsün, qovuşdursun torpaqlarımıza. Bütün Azərbaycan qarabağlıdır, bax o Qarabağımız geri qayıtsın.

**❑ Xalidə GƏRAY,**
**Fotolar Elçin Əkbərindir**
**"Yeni Müsavat"**

# "Emin 444"ü 6 nəfər öldürüb

## Qəddar qətlin ilginc təfərrüatları...

**Bakının Binəqədi rayonunda baş vermiş son illərin ən qəddar qətlinin təfərrüatları bəlli olub. "Emin 444" ləqəbi ilə tanınan Masallı sakini, 1988-ci il təvəllüdlü Emin Ehtiram oğlu Səfərovun qətlində 1 nəfər deyil, 6 nəfər iştirak edib, qətldə bir neçə bıçaqdan istifadə olunması da bunu təsdiqləyən məqamlardandır.**

Mərhumun xalası oğlu Royal Əkbərov "Yeni Müsavat" əməkdaşına bildirib ki, qətllə bağlı həbs olunan 1995-ci il təvəllüdlü Həsən Mərdan oğlu Tağıyev qanlı cinayətin iştirakçısı olsa da, onunla Emin Səfərov arasında əvvəllər hər hansı bir mübahisə olmayıb: "Həsən Tağıyev 6-cı mikrorayonda kikboksçu Zaur Əli oğlu Yusifovun adamı kimi tanınır. Onu ora-bura iş dalınca göndərirlər. Yəni bu cinayət Həsən Tağıyevin təşəbbüsü ilə törədilməyib. Cinayəti planlaşdıran, təşkilatçısı Zaur Yusifovdur, Eminin hadisədən əvvəl dəfələrlə mübahisəsi onunla olub. Səbəb də Zaurun kasıblara sələmə pul verib onları incitməsi idi".

Royal Əkbərov deyir ki, hadisədən 10 gün əvvəl Emin Səfərovla Zaur Yusifov arasında sələm məsələsinə görə daha bir mübahisə olub: "Emin cinayət aləminin üzvü deyildi, sadəcə kasıb, imkansız adamların əzilməsinə dözmürdü, o, sözünü deyən idi. Onun üçün qarşısındakının kim olmasının fərqi yox idi. Haqq bildiyini deyərdi. Zaura da irad bildirirdi ki, sələm verib adamların telefonlarını belə əllərindən alırsan, belə işlər eləmə. Emin həbsdən 15 gün əvvəl çıxmışdı. Çıxandan 5 gün sonra yenə də Zaurla qarşılaşmışdı, mübahisələri olmuşdu. Zaur Yusifova irad bildirmişdi ki, ehtiyacı olan insanlara sələmə pul verib onları incitmə. Emin Zaura demişdi ki, kasıb uşaqlaırn telefonunu əllərindən alıb sələmə pul verirsən, onlar da mənim üstümə gəlirlər. Belə işlər görmə. Bu söhbətdən sonra Zaur evə gedib, qardaşı Hacı Zamiq Eminin üstünə "Vinçestr" silahla gəlib. Zaurun qardaşı götürüb Eminin qardaşı Elçinə mesaj yazıb, ona deyib ki, biz Eminlə ölümə, qana gedirik. Bu söhbət hadisədən 10 gün əvvəl olub. Söhbət orada bağlanıb. Bundan sonra Eminə xəbər çatıb ki, Zaur orda-burda onu öldürəcəyi ilə bağlı danışır. Deyir ki, pulum da, adamlarım da var, Emini ortadan götürdürəcəyəm. Hadisə olan günü Emin dostları ilə 6-cı mikrorayonda parkın qabağında dayanıb. Evə də zəng edib ki, yemək hazırlayın, gəlirəm, çörək yeyim gedək dəniz kənarına. Övladı olmalı idi. Emin həbsdən 15 gün idi ki, çıxmışdı. Parka Zaurun atası Əli Yusifov gəlib. Əli Eminə deyib ki, gəl otur maşına, gedək Zaurla söhbət edək, sizi barışdırım. Bu söhbətlər qurtarsın. Emin də yaşlı adam olduğuna görə Əlinin sözünü yerə salmayıb, onun dediyini edib. Maşına minmək istəyən dostlarına da deyib ki, narahat olmayın, ağsaqqal adamdır, onunla gedirəm. Dostlarını zorla maşından düşürüb".

Royal Əkbərov deyir ki, Zaur Yusifov əvvəllər adam bıçaqladığına görə həbsdə olub: "Eminin ağlına belə gəlməyib ki, belə iş tutarlar, ağsaqqal adamı qabağa verib belə bir cinayət törədərlər. Bu adamlar əvvəlcədən cinayəti planlaşdırıblar. Parkın qabağına Əli Yusifov yox, elə həmin Həsən, başqa biri cavan adam gəlib Emini çağırsaydı, Emin ora tək getməzdi. Zaur da, qardaşı Zamiq də Eminin xasiyyətini bilirdilər. Onun böyük-kiçik yeri bildiyindən xəbərdar idilər. Ona görə də ağsaqqallarını qabağa veriblər. Emini aldadıb evlərinin qabağına aparıblar ki, desinlər ki, guya Emin onların üstünə gəlib, bunlar da özlərini belə müdafiə ediblər. Eminin parkın yanında dayanıb dostları ilə söhbət etdiyi yerdə onlara Əli Yusifovun yaxınlaşmasını təsdiq edən kamera görüntülərini çıxarıb baxsınlar. Bu cinayət əvvəldən planlı şəkildə törədilib".

R.Əkbərov deyir ki, Emin Səfərov Əli Yusifovla onların qapısının qarşısına çatanda orada 5-6 nəfərin dayandığını görüb: "Zaur, Zamiq və başqaları miniblər maşına, trosu atıblar Eminin boynuna, onu boğublar. Soldan qoluna bıçaqla vurublar. Buna baxmayaraq Emin maşından düşə bilib. Onlara qışqırıb deyirmiş ki, kişisizsə, tək-tək gəlin. Əliyə də deyib sənin ağsaqqal olmağına inandım. Onun bədənində müxtəlif bıçaqların izləri var. Ona 41 yox, 78 bıçaq vurublar. Boğazında trosun izi də qalıb. Zaur, qardaşı Zamiq, bacısı uşaqları, Həsən, ataları Əli Yusifov və başqa şəxs olub orada. Əli Yusifovun əlinə də bıçaqla 2-3 yara vurublar, bunu da iz azdırmaq üçün ediblər. Hadisənin şahidləri də var. Tutulan yalnız Həsən Tağıyevdir, faktiki isə Emini qrup şəklində öldürüblər. Bu işi əvvəldən planlaşdırıblar. Emini 6 nəfər öldürüb, 1 nəfər tutulub".


Emil Səfərov

Royal Əkbərov deyir ki, Emin Səfərovun ailəsi bu cinayətin ədalətli və obyektiv araşdırılmasını tələb edir: "Cinayəti törədən digər 5 nəfərin də istintaqa cəlb edilməsini istəyirik".

Qeyd edək ki, mayın 10-da Bakının Binəqədi rayonunda son illərin ən qəddar qətllərindən biri törədilib. 6-cı mikrorayon ərazisində yerləşən İsrafil Həşimov küçəsində Masallı sakini, 1988-ci il təvəllüdlü Emin Ehtiram oğlu Səfərov öldürülüb. Hadisə yerinə gələn hüquq-mühafizə orqanları əməkdaşları Emin Səfərovun qan gölməçəsinin içində meyitini aşkar ediblər. 61 yaşlı Əli Məhəmməd oğlu Yusifov çoxsaylı bıçaq xəsarətləri ilə 1 saylı Kliniki Tibbi Mərkəzə çatdırılıb. İlkin araşdırmalar zamanı məlum olub ki, mübahisə zəminində bir neçə nəfər arasında dava olub. Həmin vaxt Əli Yusifov tərəfləri ayırmağa çalışıb və o da, Emin Səfərov kimi bıçaq xəsarətlərinə məruz qalıb. Hətta ən təcrübəli kriminalistlər Emin Səfərovun qətlindəki qəddarlığın dərəcəsinə təəccüb ediblər. Qanlı hadisə ilə əlaqəli Naxçıvanın Şərur rayonunda anadan olmuş, paytaxtın Binəqədi rayonu, Həmzə Babaşov küçəsində kirayədə yaşayan, 1995-ci il təvəllüdlü Həsən Mərdan oğlu Tağıyevi saxlayıblar. Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb.

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Bakıda kuryoz iş: bağ evində işləyən qulluqçu ahıl kişini necə aldadıb?

## Oqtay Babayev deyir ki, qadın Yüzbaşıyeva müxtəlif bəhanələrlə üst-üstə 3500 manat borc alıb, məhkəmələr isə işə baxmır...

**"2013-cü il dekabrın 20-dən 2014-cü il martın 1-nə kimi bağ evində xadimə kimi işləyən Yüzbaşıyeva Zülfiyyə Alim qızı hissə-hissə borc pul alaraq, anasının aprelin ortalarında işdə oynadığı lotereya pulunu alaraq borcu qaytaracağına söz verdi. Müddət bitdikdən sonra müxtəlif bəhanələrlə vaxtı uzatdı və nəhayət, borcu qaytarmayacağını bildirdi".**


Mene niyə zeng edirsen? Zeng etme. Get qeyğını et. Çünki sən elə demişdin.
994702460509
07:06:16
17 aprel 2014
Oqtay müəllim, məni bağışla. Mənim sənə çox böyük hörmətim var. Mən də səndən artıq dərəcədə xahiş edirəm mənə imkan yaradasan, mən də aldığım borcu qaytarım.
0704320909
16:06:09
16.05.2016
994775570021
09:43:55
21.07.2016
Oqtay müəllim, Quran haqqı, hissə-hissə borc verdiyiniz 3500 manatı ilin sonuna kimi qaytaracağam.
994505274513
09:59:53
28.07.2016


AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ
XƏZƏR RAYON MƏHKƏMƏSİ

Babayev Oqtay Ağa oğluna

Bakı şəhəri, Nəsimi rayonu, 1-ci Mikrorayon, Moskva prospekti, ev 70, mənzil 25

16.12.2016-cı il

Sizin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə daxil olmuş ərizənin araşdırılması üçün Bakı şəhəri Xəzər Rayon Məhkəməsinə göndərilmiş və ərizə 06.12.2016-cı il tarixdə məhkəməyə daxil olmuşdur.

Ərizənizə cavab olaraq bildirilir ki, sizin (iddiaçı qismində) cavabdeh Yüzbaşıyeva Zülfiyyə Alim qızına qarşı "Pulun tutulması" tələbinə dair mülki iş üzrə məhkəmə hazırlıq iclası 10.11.2016-cı il saat 14:45-ə, məhkəmə baxışı iclasları 25.11.2016-cı il saat 11:00 və 09.12.2016-cı il saat 12:00-a təyin edilmiş və məhkəmə iclaslarının yeri və vaxtı barədə məktublar iddia ərizəsində göstərdiyiniz ünvanınıza göndərilmişdir.

Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 09.12.2016-cı il tarixli, 2(003)-6867/2016 saylı qətnaməsi ilə iddia tələbinin rədd edilməsi barədə qətnamə qəbul edilmişdir.

Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 09.12.2016-cı il tarixli, 2(003)-6867/2016 saylı qətnaməsindən, qətnamənin rəsmi qaydada Sizə verildiyi gündən 1 (bir) ay müddətində Bakı şəhəri Xəzər Rayon Məhkəməsi vasitəsi ilə Bakı Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verə bilərsiniz.

Hakim: Zeynəb Axundova

Bu sözləri "Yeni Müsavat"a şikayət məktubu ilə müraciət edən paytaxt sakini Oqtay Ağa oğlu Babayev bildirib. Bakının Moskva prospekti, ev 70, mənzil 25 ünvanında yaşayan O.Babayevin sözlərinə görə, Z.Yüzbaşıyeva bu günə kimi borcu qaytarmır, məhkəmələr onun tərəfindən çıxış edir, işinə baxılmır.

"İlk 800 manatdan anasına təcili lazım olduğu üçün 700 manatını poçtla göndərdiyini, 100 manatı özündə saxladığını dedi. 2014-cü ilin yanvarında göz yaşı tökərək bağda işləyənlərin qabağında qardaşının təcili əməliyyat olunması üçün anasına 500 manat lazım olduğunu söylədi. Yeganə qardaşının ölməməsi üçün diz çöküb yalvarmasına dözməyib ona 1200 manat verdim və ümumilikdə 2000 borcu olduğunu dedim. Fevralın ortalarında qardaşının qayınatasının yas mərasimini yola verməsi üçün yenə yalvar-yaxar elədi, 1000 manat şahidlərin yanında aldı. Özü də dedi ki, 3000 manat borcu oldu", - deyə O.Babayev başına gələni nəql edir.

Onun dediyinə görə, 2014-cü il martın 5-də vəfat etmiş həyat yoldaşının məzarını ad günü münasibəti ilə ziyarət etməyə hazırlaşanda bağ evində qulluqçu işləyən həmin Zülfiyyə bir daha onun qarşısını kəsir, qızını məktəbə qoymaq üçün 500 manat borc xahiş edir və O.Babayev də verir: "Mən həm ata, həm babayam. Qara günüm üçün yığdığım pensiya pulumdan verdim ki, ehtiyacı olan insana dayaq olum. O, 3500 manat borcunu qaytarmadı və məcbur olub Xəzər Rayon Məhkəməsinə müraciət etdim. Əvvəlcə polisə şikayət elədim, mənə deyildi ki, bu iş məhkəməlikdir. Xəzər Rayon Məhkəməsinin hakimi Zeynəb Axundova şahidlərimi dinləmədən iddiamı rədd etdi. Apelyasiya Məhkəməsinin hakimi İlham Əsədov da cavabdehsiz iddiamı rədd elədi. Ali Məhkəmə də eyni addımı atdı. Mənə təsir edən hakimlərin soyuqqanlığı və ədalətsizliyi oldu. Hətta onlar cavabdehə çağrış göndərdiklərini dedilər. Poçtdan rəsmi məktub aldım ki, yalan deyirlər".

O.Babayev deyir ki, məhkəmənin Z.Yüzbaşıyevanı müdafiə etməsinin səbəbi ona aydın deyil: "Görünür, rüşvət məhkəmələrin onun xeyrinə qərar verməl追 lərinə vadar edib. Hakim Zeynəb Axundova imzaladığı məktubda qeyd edir ki, guya 10 və 25 noyabr 2016-cı il tarixlərində keçirilən məhkəmə proseslərinə gəlməmişəm. Bundan Zülfiyyənin heç xəbəri olmayıb. Çünki Zülfiyyəyə noyabrın 1-də göndərilən məktub 16-da ünvan tam olmadığından məhkəməyə qaytarılıb. Həmin adam müxtəlif adamlardan pul qoparıbmış. Mən Ədliyyə Nazirliyinə, Baş Prokurorluğa, Ombudsmana, Ali Məhkəmənin sədrinə yazmışam. Ancaq işimə baxılmır, şahidlərim dindirilmir ki, borc pul alıb qaytarmadığını təsdiqləsinlər".

O.Babayev bildirir ki, Z.Yüzbaşıyeva ona Xəzər Rayon Məhkəməsində beləcə deyib: "Sənin 3500 manatını hakimlərə verəcəm ki, bir qəpik də ala bilməyəsən".

Şikayətçi bundan əlavə, redaksiyamıza Z.Yüzbaşıyeva ilə aralarında olan telefon mesajlarının stenoqramını təqdim edir. Mesajlardan görünür ki, borc alan şəxs borc verəndən üzr istəyir, ona böyük hörməti olduğunu qeyd edir və pulu qaytarmağa zaman istəyir. Növbəti mesajda isə and içərək deyir ki, 2016-cı ilin sonuna kimi 3500 manatı hissə-hissə tam qaytaracaq.

Yazıda adı keçən şəxsin telefon nömrələri bizə təqdim edilsə də, ona zəng çatmadığından mövqeyini öyrənmək mümkün olmadı.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Rusiyada azərbaycanlı gənc çimərlikdə boğuldu

**Mayın 11-də Başqırdıstan Respublikasının (Rusiya) Ufa şəhərinin Solneçnı çimərliyində gənc oğlan batıb. Report xəbər verir ki, əraziyə dərhal kater ilə xilasedicilər yolanslar da, onun həyatını xilas etmək mümkün olmayıb.**



"Təəssüf ki, onu xilas etmək mümkün olmadı, o, yardım gələnə qədər batdı", - deyə Ufanın Mülki Müdafiə İdarəsindən bildirilib.

Çimərlikdə batan şəxs 24 yaşlı azərbaycanlı olub. Dalğıclar onun meyitini hələ də tapa bilməyiblər. Axtarış işləri davam etdiriləcək.

**Elan**

**Ağdam şəhəri Seyidli kənd sakini Abdullayeva Rövşənə Əbdülrəhman qızına verilmiş əlillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 102 (7272) 13 may 2019

# Orucsunuzsa, bu yazını mütləq oxuyun!

## Təzə qida rejimi ilə bağlı nələrə diqqət etməli? Ramazanda daha gümrah qalmanın yolları...

**Ramazanın gəlməsi ilə birlikdə oruclar tutulmağa, dadlı iftar və sahur süfrələri qurulmağa başlandı. Amma gündəlik qidalanma sisteminin bir anda dəyişməsinə görə bəziləriiz özlərini bir az daha yorğun və bitmiş hiss etməyə də başladı. Məhz bu səbəbdən də oruclu ikən Ramazanda daha gümrah qalmanın yolları nələrdir deyə, "Yeni Müsavat" Türkiyə mediasına istinadən bir arayış hazırlayıb.**



Siz də orucluykən özünüzü çox daha az enerjili hiss edirsinizsə, xüsusən də iftar saatı yaxınlaşdıqca üzərinizə bir yorğunluq, bitkinlik çökürsə, iftarla sahur arasında belə üzərinizdəki o ağırlığı ata bilmirsinizsə, bunları bilmənizdə fayda var.

Ramazanda gümrah qalmağın yolları nələrdir, iftar və sahurda necə qidalanmaq lazımdır?

Ramazan boyu enerjinizin düşməməsi, özünüzü hər zaman sağlam və gümrah hiss edə bilməniz üçün edə biləcəyiniz bir çox şey var əslində. Bunlardan ən önəmliləri də təbii ki, qidalanma sisteminizlə bağlıdır. Gün içində səhər yeməyi, nahar və şam yeməyi olmaq üzrə 3, ən pis halda 2 dəfə yeməyə öyrəşən orqanizminizi çox yormamaq adına bu dönəmdə həddən artığa qaçmamalı və aşağıdakı maddələri mümkün olduqca tətbiq etməyə çalışmalısınız.

Sahurda mədənizi çox yormayacaq, amma eyni zamanda, sizi uzun müddət tox tutacaq yumurta, qatıq kimi yeməkləri tərcih etməlisiniz. "O yeməklər nələrdir" desəniz, bunu sizə belə izah edə bilərik: sahurda tox saxlayan yeməklər.

"Bütün gün ac qalacam, çox yeyim" düşüncəsindən uzaqlaşmalı, bədəninizi yormayacaq, həzmi çətin olmayan yeməkləri yetərli miqdarda istifadə etməyə çalışmalısınız.

Başda sahur olmaq üzrə iftarda, sahurda və ya bu iki zaman arasındakı müddətdə çox yağlı, ədvalı yeməklərdən uzaq dayanmağa çalışmalısınız. Bu, sizin gün boyu daha yorğun və daha ac hiss etmənizə səbəb olacaq. Orucluykən qan şəkərinizdəki dəyişiklikləri balanslaşdırmaq adına iftarda mütləq 1 və ya 2 ədəd xurma yeməlisiniz. Amma diqqətli olun. Ölçülü davranın və dozanı aşmamayın.

Hər gün eyni sahurluk və ya iftarlıqlardan istifadə etməməlisiniz. Bir gün ət yeməyi tərcih edirsinizsə, başqa gün paxlalı, bir başqa gün tərəvəz yeyərək, menyunuzu fərqləndirməlisiniz. Tək tip bəslənməyə davam etsəniz, qaz sancıları, bağırsaq problemləri yaşaya bilərsiniz, buna diqqət edin.

Susuzluq ən əsas yorğunluq səbəblərindən olduğu üçün iftar və sahur menyularınıza bol-bol şorba, kompot, xiyar daxil etməli, iftarla sahur arasındakı müddət ərzində də tez-tez su içməyə davam etməlisiniz. Bunun sayəsində gündəlik su ehtiyacınızı qarşılama fürsəti tapa bilərsiniz.



Yenə bədəninizi susuz qoymamaq adına çox duzlu və ədvalı yeməkləri qidalanma sistemindən çıxarmalı, yeməklərə əlavə duz əlavə etməməyə diqqət etməlisiniz.

İftar menyularınızda dozanı aşmamalı, bir şorba, bəlkə bir əsas yemək və bol-bol qatıq, salat kimi dəstəkləyici yeməklər yeməlisiniz. İftarda dozanı aşan yemək həm mədənizi çox yoracaq, həm ağırlıq, yorğunluq hissinizi sizə gətirəcək. Bundan başqa, bunu 30 gün davam etdirsəniz qalıcı bir hala dönəcək, mədə xəstəliklərinə səbəb olacaq.

Sahurda qovrulmamış, çiy halda balqabaq tumundan da dəstək almağı yaddan çıxarmamalısınız. Onlardan alacağınız dəstəklə özünüzü daha enerjili və çox daha uzun müddət tox hiss edə bilərsiniz. Çiy badam, çiy fındıq və qoz kimi ləpələri tərcih edə bilər, bunları da normadan artığa qaçmadan istifadəyə diqqət edə bilərsiniz.

Şərbətli şirniyyatlar yerinə südlü, xəfif şirniyyatları seçərək qan şəkərinizin sağlam səviyyədə qalmasını təmin edə bilərsiniz. Bu da özünüzü daha gümrah hiss etmənizi təmin edər.

Şirniyyatı iftar süfrəsində yeməkdənsə, iftarın ardınca 1-2 saat keçdikdən sonra yeməlisiniz. Qovuşduğumuz üçün çox xoşbəxt olsaq da, sahurda da, iftarda da Ramazan pidesindən çox istifadə etməməyə diqqət göstərməliyik.

"Mən sahura qalxmadan oruc tuturam, bu, daha asan olur" deyirsinizsə, bu düşüncəni tərk etməli, hər kəsin etməli olduğu kimi iftar və sahurunuzu lazım olan saatlarda etməlisiniz.

İftar ilə sahur arasında həddən artıq çay və qəhvə içməməli, onların yerinə bol-bol su, ayran, təbii bitki çayı tərcih etməlisiniz. Qəhvə və çay bədəndəki suyu bayıra atmaq özəlliyi olan içkilər olduğundan ehtiyacınız olan suyu içə bilməməyinizə səbəb olacaq.

İftarda, sahurda və iftar ilə sahur arasında keçən müddətdə ala biləcəyiniz tədbirləri, nəyi etməli olduğunuzu sıraladıq, amma oruclu olduğunuz gün boyunca etməli olduqlarınız da yox deyil. Bəli, bu müddət ərzində heç bir şəkildə yemək yeməyəcək, su içməyəcəksiniz. Amma özünüzü enerjili hiss edə bilmək üçün enerjinizin düşməyə başladığını hiss etdiyinizdə bu üsullara müraciət edə bilərsiniz.

Gün ərzində açıq havada olmanızı tələb edən bir işiniz varsa, özünüzü Günəşin zərərli təsirlərindən qoruyacaq şəkildə geyinməyə diqqət etməlisiniz. Həddən artıq hərəkət etmək qədər hərəkətsizlik də pis olduğundan masa başı bir işiniz varsa, mütləq gün içində qısa idman hərəkətləri, yürüyüşlər etməlisiniz.

Qan şəkərinizin çox düşməyə başladığını düşünürsünüzsə, yarım saat qədər uzanmağı, yatmağı təcrübədən keçirməlisiniz. Yuxu zamanı qan şəkəriniz balansa düşməyə başlayacaq.

Gün ərzində yuxunuz çox gəlirsə, sürətlə duş alaraq, yuxunuzun açılmasını təmin etməlisiniz. Sahurdan dərhal sonra yatmağı seçirsinizsə, yatanda mütləq başınızın yüksəkdə olduğundan əmin olmalısınız. Mümkünsə, hər zamankından 1 ədəd daha artıq yastıqdan istifadə edərək, başınızı qoyduğunuz yeri hündürləşdirin. Bu, həm daha rahat yatmağınızı təmin edər, həm də mədənizdə bir problem yaranmaz.

Gün içində edə bilməsəniz belə, iftar sonrası mütləq gəzməli, təmiz hava almalısınız. Bu, bədəninizin balansını tapmasını, iftarda yediklərinizi sahuradək daha rahat və sağlam bir şəkildə həzmini təmin edəcək.

**Dünyanın ən uzun orucları**

Yeri gəlmişkən, bir faktı da qeyd edək ki, dünyada 22 saat boyunca oruc tutanlar da var. Məsələn, Ada ölkəsi olan İslandiyada yaşayan türk vətəndaş Alptuğ Ərkoç təxminən 22 saat oruc tutur. Ərkoç deyib ki, yaşadığı məkanda günlər uzun olduğu üçün axşam namazı ilə sabah namazı arasında çox qısa bir müddət var: "Təxminən gecə saat 12-də orucumuzu açırıq, saat 02.15-də isə yenidən oruca başlayırıq".

İslandiya say etibarilə ən az müsəlmanın yaşadığı ölkələr arasında yer alır. Sayları 1500-ə yaxın olan müsəlmanlar 330 min nəfərlik İslandiya əhalisinin 0.5 faizini təşkil edir. Bu ölkə eyni zamanda ən az türk vətəndaşının yaşadığı ölkələrdəndir. Türkiyə Xarici İşlər Nazirliyinin məlumatlarına görə, ada ölkəsində 80-ə yaxın türk vətəndaşı yaşayır və qeydiyyata düşüb.

İslandiyadakı türk vətəndaşlarından biri də Türkiyənin Balıkəsir şəhərində dünyaya gəlmiş Alptuğ Ərkoçdur. Bir İslandiya vətəndaşı ilə evlənib, paytaxt Reykjavikə köçən 30 yaşlı Ərkoç bir dövlət xəstəxanasının psixiatriya klinikasında çalışır. Ayşənur və Nisanur adlarında 4 və 2 yaşlarında iki qızı olan Ərkoç ramazan ayında orucunu da məsciddə açır.

Ərkoç deyib ki, gecə saat 12.00-də axşam namazını qılıb ondan sonra yeməyini yeyir və dərhal namaza başlayır. İki rükət namaz qılandan 10-15 dəqiqə sonra isə sübh namazı qılmağa və oruca başlayırlar. İslandiyada ramazan ayı gözəl keçsə də, Türkiyədəki kimi atmosferin olmadığını deyir. İftarını açdığı məscidə qızlarını da aparan Ərkoç deyib ki, uşaqlarının da dinlərini tanıması üçün əlindən gəldiyi qədər onları məscidə aparır: "Hər zaman yanıma gəlib, üstümə çıxmağa çalışırlar, ya da bəzən mənim hərəkətlərimi təqlid edirlər. Bununla da yavaş-yavaş İslamı və namaz qılmağı öyrənirlər".

Ərkoç 10 dəfə dünyanın ən rahat və huzurlu ölkəsi seçilən İslandiyanın xalqı və təbiətinə görə çox gözəl bir ölkə olduğunu deyib.

**"Orucam-əsəbiyəm"... doğrudurmu?**

Oruclu insan sabit ruh halını saxlamaq üçün iftar və sahuru düzənli şəkildə həyata keçirməli, orqanizmin sistemini sarsıtmamalıdır.

Sahura qalxan insanlarda gecə yuxusunun bölünməsi, gündəlik işlərinə eyni saatda başlamaq məcburiyyətində olması, yorğunluq, diqqət dağınıqlığı və diqqət itkisinə əlavə olaraq, paralel əsəbilik də gətirir. Bu vəziyyəti əngəlləmək üçün bəzi tədbirlər görülməlidir.

Mütəxəssislər hesab edirlər ki, bu aya məxsus olan tədbirlərdən biri gündüzlər "şəkərləmə" (qısamüddətli yuxu), axşam erkən saatlarda yatmaq, komanda çalışmasını və yardımlaşmanı ön plana çıxarmaqdır.

Yuxu, yemək və maye qıtlığına qarşı həssaslıq göstərilərsə, oruc tutanlarda tez-tez müşahidə olunan zehni yorğunluğun qarşısı alına bilər. Yuxu pozğunluğu insanın nəqliyyatda diqqətinin dağılmasına və yol qəzalarına səbəb ola bilər. Bu səbəbdən də yuxu və yemə-içmə sisteminin düzgün qurulması insanın gündəlik rejiminin pozulmasının qarşısını alır.

Psixoloqlar bu durumda daha bir məqama diqqət çəkir ki, bu da oruc tutmayan insanlarla bağlıdır. Belə ki, xəstəlik səbəbindən oruc tuta bilməyən insanların dini baxımdan məsuliyyət daşımadığı bilinən gerçəkdir. Çünki insan əlində olmayan fiziki səbəblərə görə oruc tuta bilmir. Yəni onun oruc tuta bilməməsi öz seçimi deyil, bədənindəki problemlər onun oruc tutmasına icazə verməmişdir. Bu da xüsusi bir nəticə yaşanır. Bu arada isə həmin insanların oruc tutanların qarşısında özünü günahkar hiss etməsi kimi bir hal yaşanır.

Əvvəllər sizi qıcıqlandırmayan şeylər ac olduğunuza görə sizi hövsələdən çıxara bilər. Xüsusən iftar yaxınlaşdıqca bu hallar daha tez-tez müşahidə olunur. Bizim ən çox müşahidə etdiyimiz hal isə əvvəlcədən hansısa psixoloji xəstəlikdən əziyyət çəkən insanlarda həkimlə məsləhətləşmədən oruc tutmaq məqsədilə dərmanlarını saxlaması və buna müvafiq olaraq əvvəlki xəstəliklərinin yenidən qayıtması hallarıdır...

❑ **Sevinc TELMANQIZI, "Yenin Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 102 (7272) 13 may 2019



## Bu universitetdə xoşbəxtlik dərsləri olacaq

**Bristol Universiteti "xoşbəxtlik dərsləri" keçəcək. O, bu yolla tələbələr arasında yayılan intiharın qarşısını almağı hədəfləyib. Bu barədə "The Independent" nəşri xəbər verir.**

Professorlar tərəfindən 12 həftəlik kurs hazırlanıb. Buna səbəb son 3 ildə 10-dan artıq tələbənin intihar etməsi olub. Məşğələləri psixologiya üzrə professor Bryus Xud aparıb. O, tələbələrə izah edəcək ki, xoşbəxtlik nədir və onu necə əldə etmək olar. O ümid edir ki, bu kurs digər fakültələrdən olan tələbələri də maraqlandıracaq.

Mühazirələr sentyabrda başlanacaq və həftədə bir dəfə, bir saat olmaq şərtilə keçiriləcək. Tələbələrə yeddi gün ərzində həll etməli olduqları tapşırıqlar veriləcək. Ardınca nəticələr müzakirə olunacaq. Təcrübə özündə yuxu saatlarını tənzimləməyi, meditasiyanı, insanlara minnətdarlıq hissini və gözəl əməllər həyata keçirməyi özündə əks etdirir.

Yanvar ayında Britaniya hakimiyyət nümayəndələri bəyan etdilər ki, sosial şəbəkələrə girişi məhdudlaşdıra bilərlər. Buna səbəb intiharı təbliğ edən şəxslərin orada çox geniş yayılmasıdır.

# 60 yaşdan yaşlılar idman edirsə... bunlar baş verir

**İngiltərədə yayımlanan "Sport Medicine" adlı qəzet uzun müddət davam edən araşdırmaların nəticələrini yayımlayıb. Qəzetdə yayımlanan yazıda deyilir ki, 60 yaşdan sonra idmanla məşğul olmaq insanın həm yaddaşını gücləndirir, həm də ömrünü uzadır.**



Yaşı 60-dan çox olan 3 min 500 nəfərin üzərində aparılan araşdırmalardan sonra məlum olub ki, insanlar idmanla məşğul olmağa başladıqdan sonra onların ömürləri 8 il uzanır. İdman ürək-damar sistemində olan xəstəliklərin qarşısını alır, diabet, yaddaşsızlıq və depressiya riskini azaldır.

# Gənclər 20 yaş ərəfəsində piylənirsə... 8 il tez ölür

**Artıq çəki problemi dünya əhalisinin əksəriyyətini düşündürür. Alimlər ona qarşı ən effektli mübarizə metodları axtarıb tapmağa çalışırlar. Lakin hələ də arıqlamaq üçün ən ideal vasitə tapılmayıb. Bununla belə, sözügedən istiqamətdə araşdırmalar davam edir.**

Son araşdırmalar zamanı məlum olub ki, əgər kişi 20 yaşınadək özünü normal çəkidə saxlayırsa, sonradan onun gonbullaşması ehtimalı çox azdır. Ən qəribəsi odur ki, son təcrübələr artıq çəkinin insan ömrünə təsirini də üzə çıxarıb. Nəticələr isə o qədər də ürəkaçan deyil. Rusiya mətbuatı xəbər verir ki, 20 yaş ərəfəsində piylənmədən əziyyət çəkən insanlar digərləri ilə müqayisədə təxminən 8 il tez ölür. Danimarka alimlərinin 5000 kişi arasında apardıqları araşdırma göstərib ki, istənilən yaşda piylənmədən əziyyət çəkən insanın tez ölmə riski 2 dəfə artıqdır. Ona görə də alimlər erkən yaşlardan uşaqların piylənməsinə imkan verməməyə, yetkinlik dövründə kimi onların normal çəkidə qalmasına güclü nəzarətin olmasını məsləhət görürlər.



## Arvadından canını qurtarmaq üçün... həbsə girdi

**Rusiya vətəndaşı qalmaqallı arvadından canını qurtarmaq üçün soyğunçuluq etmək qərarına gəlib. Rusiyada bir kişi ailə problemlərini maraqlı üsulla düzəltmək istəyib. O, qalmaqallı arvadından canını qurtarmaq üçün soyğunçuluq etmək qərarına gəlib. Kişi bu yolla arvadı ilə üz-üzə gəlməmək üçün həbsə düşmək istəyib.**

Bu fikri həyata keçirmək üçün qonşuluqda yerləşən mağazanı soyub. Müşahidə kameraları kişinin kassirə yaxınlaşıb bütün pulların ona verilməsini tələb etdiyi anlarını çəkib. O, kassada oturan şəxsi hədələmək üçün özü ilə silah gətirməyib. Onu inzibati cəza və cərimə gözləyir.

Qeyd edək ki, analoji hadisə Nigeriyada da yaşanıb. Nigeriyalı bir kişi arvadından qorunmaq üçün məhkəməyə müraciət etmişdi. Kişinin sözlərinə görə, həyat yoldaşı onu mütəmadi olaraq döyür. "O, ailədə hegemonluq edir. Mən daha bununla barışa bilmərəm. Mənim arvadım normal adam deyil", - deyə kişi bildirib. Nigeriyalı hökumətdən arvadının onu öldürməyəcəyi haqqında təminat tələb edib.




**QOÇ** - Giley-güzara, kimi gəldi ittiham etməyə vaxt itirməkdənsə, reallığı nəzərə alın. Özünüzə tənqidi yanaşın. Bunu bacardığınız təqdirdə nahardan sonra ruhi rahatlıq hiss edəcəksiniz.

**BUĞA** - Paxıl və bədxah adamların müdaxilələrinə fikir verməyin. Həqiqətə yaxın olan arzularla yaşayın. Bürcünüzün "hakimiyyətdə" olduğu bu gözəl gündə enerjinizi boş şeylərə görə itirməyin.

**ƏKİZLƏR** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.

**XƏRÇƏNG** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**ŞİR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin. Çox uğurlu olacaq.

**QIZ** - Bu gün ulduzlar məclislərdə iştirakınızdan xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Daxili orqanlarınıza fikir verin.

**TƏRƏZİ** - Gərgin vaxt olsa da, "məsləhətli don gen olar" deyiblər, inandığınız insanların tövsiyələrinə riayət etməklə, sıxıntılarınızı dəf edə bilərsiniz. Başladığınız bütün işlərin məsuliyyətini anlamağa çalışın.

**ƏQRƏB** - Həftənin bu enerjili günündə yalnız işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Çünki bu addım böyük perspektivlərdən xəbər verir.

**OXATAN** - Proseslərin inkişafı mənfi istiqamətdə cərəyan edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.

**OĞLAQ** - İxtiyarınızda olan bu gözəl gün hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ev deyil, həm zooparkdı, həm də liman

**ABŞ-ın qumarxanaları ilə məşhur olan Las-Veqas şəhərindəki bir ev görənləri heyrətləndirib. Dəyəri 48 milyon dollar olan evin hava limanı belə var. Las-Veqasın mərkəzində olan villa 8 binadan ibarətdir. 61 min kvadratmetr ərazidə tikilən ev sentyabr ayında 70 milyon dollara satışa çıxarılmışdı. Lakin gözlənilən qədər tələb gəlmədiyi üçün evin qiyməti 22 milyon aşağı düşdü. Hazırda həmin bina 48 milyon dollara satılır. "Casa de Shenandoah" adlı evdə 37 at saxlanılır. 7 maşınlıq qarajı olan evin kiçik zooparkı və tennis sahəsi də var. Evin ən böyük özəlliyi hava limanının olması və orada yeni bir "F-28" markalı kiçik təyyarənin saxlanılmasıdır.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050